HƏYAT BİLGİSİ

4

Dərslik

Azərbaycan Respublikasının Dövlət Himni

Musiqisi ***Üzeyir Hacıbəylinin,***
sözləri ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

HEYDƏR ƏLİYEV

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

GÜLƏR MEHDİYEVA

Ümumtəhsil məktəblərinin

4-cü sinfi üçün

Həyat bilgisi fənni üzrə DƏRSLİK

Bu nəşrlə bağlı irad və təkliflərinizi aspoligraf.ltd@gmail.com və derslik@edu.gov.az elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

«ASPOLİQRAF»

KİTABIN İÇİNDƏKİLƏR

I. DÖVLƏTİMİZ, HÜQUQLARIMIZ, VƏZİFƏLƏRİMİZ

1. Yenidən məktəbdə 8
2. Uşaq hüquqları 12
3. Dövlət orqanları 17
4. Dövlət büdcəsi. Vergi 21
5. Sığorta 25
6. Milli pul 27
7. Vətəndaşlıq 30

II. MƏNƏVİ DÜNYAMIZ

8. İsraf və qənaət 34
9. Doğma və ögey münasibət 38
10. Məsuliyyət hissi 40
11. Ədəb qaydaları 42
12. İslam dininin yaranması 44
13. Azərbaycanda din 48
14. Mövhumatçılıq 50

III. SAĞLAM VƏ TƏHLÜKƏSİZ HƏYAT

15. Onurğa sütunu 54
16. İnsanın daxili orqanları 58
17. Orqanizmi necə qorumalı? 61
18. İlk tibbi yardım 65
19. Məişət qəzaları 69
20. Yol hərəkəti qaydaları 71
21. Fövqəladə hal 74

IV. TƏBİƏT VƏ CƏMİYYƏT

22. Yer təbiətinin müxtəlifliyi 80
23. Təbiətdəki əlaqələr 89
24. Ekologiya 93
25. Yurdumuzun işıqları 97
26. Enerji mənbələri 100

ŞƏRTİ İŞARƏLƏR

Mövzuya giriş — motivasiya

Açar sözlər

Bunu bilməlisiniz

Düzgündür

Düzgün deyil

Mövzu ilə bağlı mütaliə üçün tövsiyələr

Mövzu ilə bağlı filmlər

Maraqlı faktlar

Sual və tapşırıqlar

ƏZİZ MƏKTƏBLİLƏR!

Yeni dərs ilində «Həyat bilgisi» dərsliyi yenə görüşünüzə gəlib. İndiyə qədər ondan çox şey öyrənmisiniz. Bu dərslik sizə təbiət, bitki və heyvanlar aləmi, cəmiyyət və insanlar haqqında maraqlı məlumatlar, faydalı biliklər verib. Aşağı siniflərdə öyrəndiyiniz bilikləri yeni dərs ilində "Həyat bilgisi"nin köməyilə daha da genişləndirəcəksiniz.

İnsanın ən etibarlı köməkçisi onun bilikləridir. Biliksiz insan ən adi həyat və məişət problemlərini də həll etməkdə çətinliklərlə üzləşir. Belə insan səhrada, yaxud meşədə kompassız hərəkət edən səyahətçiyə bənzəyir. Ona görə də siz həmişə dərslərinizdə fəal olmağa, bilik öyrənməyə çalışın. Bunu da unutmayın ki, kitablardan əldə etdiyiniz bilikləri gündəlik həyatınızda istifadə etməyi bacarmasanız, öyrəndiklərinizin heç bir faydası olmayacaq. İnsanın biliyi gündəlik həyatında ona kömək etmirsə, o biliyin faydası yoxdur.

DÖVLƏTİMİZ, HÜQUQLARIMIZ, VƏZİFƏLƏRİMİZ



DƏRS 1

1. YENİDƏN MƏKTƏBDƏ

Yay fəsli başa çatdı. Siz yay fəslindən və tətil günlərindən necə faydalandınız?

Yay təəssüratları. Tətil zamanı asudə vaxtınız çox olub. Siz, yəqin ki, bu vaxtdan səmərəli istifadə etməyə çalışmısınız. Bəzilərinizdincəlmək üçün başqa şəhər və kəndlərə getmisiniz. Xarici ölkələrə səyahət edənləriniz də olub.

Tətil müddətində olduğunuz yerlərdə, yəqin ki, təzə dostlar tapmış, yeni məlumatlar əldə etmisiniz. Maraqlı filmlərə baxmış, kitablar oxumuş, müxtəlif oyunlar oynamısınız. 3-cü sinifdə bacarmadığınız bir çox işləri indi bacarırsınız. Görünüşünüz də dəyişib. Boyunuz uzanıb. Dərinizin rəngi Günəşdən qaralıb. Bu, orqanizmin sağlamlığı üçün yaxşıdır, lakin Günəşin altında çox qalmaq olmaz. Günün qızmar saatlarında mütləq kölgədə olmaq lazımdır. Əks halda Günəş şüaları orqanizmə ziyan vura bilər.

Tətil günləri hansı maraqlı hadisələrlə yadınızda qalıb? Bu barədə düşünərək yay tətilində nələrə nail olduğunuzu müəyyən edə bilərsiniz.

Bilirsinizmi yayda dərinin qaralması nə üçün faydalı hesab edilir? Günəş şüalarının dəriyə təsirindən bədəndə sağlamlıq üçün vacib olan D vitamini yaranır. Bu səbəbdən D vitaminini «Günəş vitamini» də adlandırırlar.

Sual və tapşırıqlar

1. Yayda Günəş altında çox qalmaq orqanizmə necə təsir göstərə bilər? Cavabınızı «+» və ya «–» işarəsi ilə dəftərinizdə qeyd edin.

№	Nəticələr
1	Orqanizm Günəş şüalarına öyrəşər, insan qışda üşüyər.
2	Bədənin temperaturu azalar.
3	Dəridə yanıqlar əmələ gələr.
4	Orqanizmin fəaliyyəti pozular.
5	Bədəndə daha çox D vitamini yaranar.
6	İnsan daha sağlam olar.

2. Yayda dərinin Günəşdən qaralmasının faydası nədir?

a) Biz fərqli və daha qəşəng görünürük.
b) Dərimizin qaralması boyumuzun artması üçün vacibdir.
c) Günəş şüalarının dəriyə təsirindən orqanizmə lazım olan D vitamini yaranır.

3. 3-cü sinif dərsliyinin sonunda verilmiş yay tapşırıqlarından hansılarını yerinə yetirdiniz? «Yayda gördüyüm işlər» adlı cədvəli doldurun və təqdim edin.

Apardığım təcrübələr	Aldığım nəticələr	Oxuduğum kitablar	Gəzdiyim yerlər

DƏRS 2

təhsil, hüquq, vəzifə

Sizin vəzifələriniz. Tətil günləri arxada qaldı. Yeni dərs ili başladı. Doğma məktəbinizdə dərs keçirsiniz. Bu, sizin təhsil hüququnuzdur. Ölkəmizdə hər bir insanın pulsuz təhsil almaq hüququ vardır. Bir şagird kimi sizin vəzifəniz bu hüququ dəyərləndirmək və onun verdiyi imkanlardan bacarıqla istifadə etməkdir. Siz dərslərdə fəal olmalı, daim öz üzərinizdə çalışmalısınız. Bu gün dərslərində yüksək nəticələrə can atan şagird sabahın tanınmış alimi, həkimi, müəllimi və digər peşə sahibi olacaq. Siz gələcəyinizin bünövrəsini* bu gün özünüz qoyursunuz.

UŞAĞIN ƏSAS VƏZİFƏLƏRİ:

– cəmiyyətdə davranış qaydalarına əməl etmək;
– Azərbaycan Respublikasının dövlət rəmzlərinə bələd olmaq;
– biliklərə yiyələnmək;
– özünü faydalı fəaliyyətə hazırlamaq;
– valideynlərə, digər vətəndaşların hüquq və mənafelərinə, öz xalqının və başqa xalqların ənənələrinə və mədəni sərvətlərinə hörmətlə yanaşmaq;
– tarix və mədəniyyət abidələrini, ətraf mühiti qorumaq.

(«Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının Qanunundan)

* *Bünövrə – əsas*

Sual və tapşırıqlar

1. «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən uşaqların üzərinə düşən vəzifələri sayın. Bu vəzifələrə daha nəyi əlavə etmək olar?

2. Aşağıdakılardan biri uşağın əsas vəzifələrinə aid deyil.

a) yaradıcılıq müsabiqələrində iştirak etmək
b) valideynlərinə hörmətlə yanaşmaq
c) yol hərəkəti qaydalarına əməl etmək

3. «Azərbaycanın dövlət rəmzləri və digər dövlətçilik atributları*» adlı cədvəli dəftərinizdə çəkib işləyin.

Dövlətimizin rəmzləri və atributları	Fəaliyyətlər
bayrağımız (şəkil, yaxud sözlə təsvir edin)	
gerbimiz (şəkil, yaxud sözlə təsvir edin)	
himnimiz (müəllifləri və sözləri)	
paytaxtımız	
ordumuz	
ərazimiz (sərhəd qonşuları)	
milli pulumuz	
dövlət dili	

4. Faydalı fəaliyyət dedikdə nə başa düşürsünüz? Fikirlərinizi izah edin.

5. Cədvəli dəftərinizdə çəkib işləyin, vəzifələrə uyğun fəaliyyətləri, fəaliyyətlərə uyğun vəzifələri yazın və təqdim edin.

Vəzifələr	Fəaliyyətlər
Biliklərə yiyələnmək üçün nə edirəm?	
	Valideynlərimin sözünü dinləyirəm, onların məsləhətlərinə qulaq asıram, böyüklərə hörmət edirəm, başqa xalqların adət-ənənələrinə hörmətlə yanaşıram.
Tarixi abidələri, mədəniyyət abidələrini, ətraf mühiti qorumaq üçün nə edirəm?	

* *Dövlətçilik atributları* – dövləti təcəssüm etdirən əlamətlər

2. UŞAQ HÜQUQLARI

Lalə yay tətilində Hans Kristian Andersenin «Kibritsatan qız» nağılını oxudu. O, nağıldakı balaca qızın halına çox acıdı, hətta ağladı da. Fikirlərini anasına bildirəndə anası onu sakitləşdirib dedi: «Narahat olma, qızım, Andersen öz nağılını keçmiş zaman üçün yazıb. O zaman kimsəsiz uşaqların taleyini yalnız tək-tək insanlar düşünürdü. İndi isə hər bir uşağın hüquqları dövlət təşkilatları və beynəlxalq təşkilatlar tərəfindən müdafiə olunur».

Sizcə, Lalənin anası bununla nə demək istəyirdi?

DƏRS 1

Dövlət və uşaq hüquqları. Valideynləri ilə birlikdə yaşamaq, onların soyadını daşımaq uşağın hüququdur. Uşaqlar valideynlərinin və ya yaxın qohumlarının himayəsində* yaşayırlar. Onlar uşağa qayğı göstərir, onun sağlam, təhsilli və xoşbəxt böyüməsinə çalışırlar. Bəs uşaq valideyn himayəsindən məhrum olursa, onda necə? Bu zaman uşağın qayğısına kim qalır? Belə hallarda dövlət uşağı himayəsinə götürərək qayğısını özü çəkir. Həmin uşaqlar dövlət uşaq müəssisələrində yaşayırlar. Burada onların sağlam böyüməsi və təhsil alması üçün lazım olan şərait yaradılır.

Uşaq hüquqları haqqında sənədlər. Dünyada elə ölkələr var ki, orada uşaqların hüquqları tam təmin olunmur. Uşaqlar kiçik yaşlarından işləməyə məcbur olur, təhsildən kənarda qalırlar. Bəs bu uşaqların hüquqlarını necə qorumaq olar?

---

* *Himayə* – birini qorumaq, ona qayğı göstərmək

Müasir dövrdə dünya dövlətləri bir araya gələrək təşkilatlar yaradır. Belə təşkilatlara beynəlxalq təşkilatlar deyilir.

Beynəlxalq təşkilatlar dünyada sülhün, insan hüquqlarının, ətraf mühitin qorunmasına çalışır. Onlar problemlərin həlli üçün sənədlər hazırlayırlar. Dünya dövlətləri bu sənədləri imzalayır və orada göstərilənləri yerinə yetirməyi öhdələrinə götürürlər. Belə sənədlərdən biri də **Uşaq Hüquqları haqqında Konvensiyadır***. Bu sənədi imzalayan dövlətlər uşağı onun sağlamlığına təhlükə törədən, təhsil almasına mane olan hər şeydən müdafiə etməyə və hüquqlarını qorumağa borcludur. Azərbaycan Respublikası da Uşaq Hüquqları haqqında Konvensiyanı imzalayan ölkələr sırasındadır. Konvensiyada göstərilən öhdəlikləri yerinə yetirmək üçün Azərbaycan dövləti uşaq hüquqları haqqında qanun qəbul etmişdir.

* *Konvensiya* – ölkələr arasında xüsusi bir məsələ ilə bağlı imzalanmış sənəd

Sual və tapşırıqlar

1. Valideynlər uşağa qayğı göstərməlidir, çünki:

a) dövlət buna nəzarət edir
b) bu, onların vəzifəsidir
c) uşaqlar işləmirlər

2. Aşağıdakılardan hansı uşağın hüquqlarına aid deyil?

a) ailədə yaşamaq
b) pul qazanmaq üçün işləmək
c) valideynlərinin soyadını daşımaq

3. Zəncirin halqalarının içərisinə uşağın normal inkişafı üçün lazım olan amilləri yazmaq lazımdır. Şəkli dəftərinizdə çəkib içərisini doldurun. Halqaların sayını lazım bildiyiniz qədər artıra bilərsiniz.



4. Dövlət uşağın qayğısını nə zaman öz üzərinə götürür?

a) uşaq valideynləri ilə yaşamaq istəmədikdə
b) valideyn başqa ölkəyə köçüb getdikdə
c) uşaq valideyn himayəsindən məhrum olduqda

5. Cümləni dəftərinizə köçürüb tamamlayın.

Müasir dövrdə hər bir uşağın hüquqları ..... tərəfindən qorunur.

6. Aşağıdakılardan biri uşaq hüquqları haqqında sənəd deyil.

a) Uşaq Hüquqları haqqında Konvensiya
b) Uşaq Hüquqları Günü
c) «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının Qanunu

inkişaf hüququ,
müdafiə hüququ,
iştirak hüququ,
yaşamaq hüququ

Əsas uşaq hüquqları. Uşaq Hüquqları haqqında Konvensiyada uşaqların yaşaması və inkişafı üçün vacib olan bütün hüquqlar öz əksini tapmışdır. Bu sənəd dünyanın hər yerində yaşayan uşaqlar üçün ümumidir, yəni bütün uşaqlara aiddir. Konvensiyaya görə, dərisinin rəngindən, cinsindən, hansı ailədə doğulmasından asılı olmayaraq, bütün uşaqlar bərabər hüquqlara malikdir. Hər bir uşağın inkişaf etmək, müdafiə olunmaq, cəmiyyətin həyatında iştirak etmək və yaşamaq hüququ vardır.

İnkişaf hüququ – uşağın təhsil alması, yaradıcılıqla məşğul olması, biliklər əldə etməsi, istirahəti və başqa fəaliyyətlərinə imkan yaradılması deməkdir.

Müdafiə hüququ – uşağın döyülmə, təhqir olunma, müharibələrə cəlb edilmə, işlədilmə və başqa zorakılıqlardan müdafiəsi deməkdir.

«Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının Qanununda göstərilmişdir ki, hər bir uşağın təhsil almaq hüququ var və uşaqların ümumi icbari* orta təhsildən yayındırılması qadağandır.

İştirak hüququ – uşaqların təşkilatlar yaratması, fikirlərini sərbəst bildirməsi, yaşlarına uyğun tədbirlərə qatılması və digər fəaliyyətləri üçün şəraitin təmin olunması deməkdir.

Yaşamaq hüququ – uşağın fiziki və əqli sağlamlığının qorunması və möhkəmləndirilməsi üçün onun vacib olan qida məhsulları, tibbi xidmət və s. ilə təmin olunması deməkdir.

Uşaq Hüquqları haqqında Konvensiya 1989-cu il noyabrın 20-də qəbul edilmişdir. Konvensiyanın qəbul olunduğu bu tarix hər il bütün dünyada «Ümumdünya Uşaqlar günü» kimi qeyd edilir.

* *İcbari* – məcburi

Sual və tapşırıqlar

1. Aşağıdakılardan biri hüquqa aid əlamət deyil.

a) ümumilik
b) fərdilik
c) ədalətlilik

2. Aşağıdakılardan hansı uşağın hüququnun pozulmasıdır?

a) uşağı dərsdən əlavə məşğələlərə cəlb etmək
b) uşağı dərsdən sonra işə göndərmək
c) uşağın kompüterinə nəzarət etmək

3. Uşaq Hüquqları haqqında Konvensiyada uşağın hansı hüquqları qorunur? Cavabı seçib söyləyin.

Hüquqlar	Cavab
müstəqil yaşamaq	bəli/xeyr
təhsil almaq	bəli/xeyr
işləmək	bəli/xeyr
təşkilat yaratmaq	bəli/xeyr
müstəqil səyahət etmək	bəli/xeyr
tibbi xidmət almaq	bəli/xeyr
başqa ölkəyə köçüb getmək	bəli/xeyr
fikrini bildirmək	bəli/xeyr

4. Cümləni dəftərinizə köçürüb tamamlayın.

«Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının Qanunu .... xidmət edir.

5. Konvensiyada daha hansı hüquqların olmasını istərdiniz? Fikirlərinizi yazın.

3. DÖVLƏT ORQANLARI

Geniş bir ailəni təsəvvürünüzə gətirin. Burada körpələr, kiçikyaşlı uşaqlar, məktəblilər, gənclər, qocalar, işləmək qabiliyyəti olmayan insanlar olur. Bu ailəni ailə başçısı idarə edir. O, ailə üzvlərinin normal qidalanması, uşaqların sağlam böyüməsi, məktəblilərin dərs ləvazimatı ilə təmin olunması üçün cavabdehdir. Ailə başçısı ailədə olan yaşlıların rahatlığına nəzarət edir, xəstələrin müalicəsinin qayğısına qalır. Yaxşı başçısı olan ailədə hər şey qaydasında olur.

Cəmiyyətdə ailə başçısı rolunu dövlət başçısı yerinə yetirir.

Bəs dövlət başçısı bu qədər insanın qayğısını necə çəkə bilir?

Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının **Prezidentidir**. Prezidenti seçkilərdə səsvermə yolu ilə xalq seçir. Prezident dövləti tək idarə etmir. Bu işdə onunla birlikdə dövlət orqanları da iştirak edir. Dövlət orqanlarına **Milli Məclis, Nazirlər Kabineti, məhkəmə** və digər qurumlar aiddir. Dövlətin idarə olunması işləri bu orqanların arasında bölüşdürülmüşdür. Hər dövlət orqanının öz vəzifəsi vardır. Məsələn, Milli Məclisdə xalq tərəfindən seçilmiş deputatlar işləyirlər. Onlar ölkə üçün həyatın bütün sahələrinə aid qanunlar hazırlayırlar. Təhsil, uşaq hüquqları, sağlamlıq haqqında qanunları buna misal göstərmək olar.

Milli Məclisdə qəbul edilmiş qanunların həyata keçirilməsi ilə Nazirlər Kabineti məşğul olur. Nazirlər Kabinetinin tərkibinə müxtəlif nazirliklərin və digər dövlət orqanlarının rəhbərləri daxildir. Onlara Baş Nazir rəhbərlik edir.

Respublikamızda məhkəmələr də fəaliyyət göstərir. Məhkəmə bütün mübahisəli məsələləri ədalətlə həll edən dövlət orqanıdır. Məhkəmədə qanun pozuntusu və cinayət işlərinə, vətəndaşlar arasındakı əmlak mübahisələrinə və s. işlərə baxılır.

Ölkənin inkişafı, cəmiyyət üzvlərinin firavan və rahat yaşaması dövlət orqanlarının öz vəzifəsini necə yerinə yetirməsindən asılıdır.

Sual və tapşırıqlar

1. Aşağıdakılardan hansı xalq tərəfindən seçilmir?

a) respublika prezidenti
b) baş nazir
c) deputatlar

2. Qanunlar olmasa, nə baş verər? Fikirlərinizi nümunələrlə əsaslandırın.

3. Milli Məclisdə kimlər fəaliyyət göstərir?

a) nazirlər
b) deputatlar
c) hakimlər

4. Cədvəli dəftərinizdə çəkib işləyin.

Dövlət orqanları	Vəzifələri
Milli Məclis	
Nazirlər Kabineti	
Məhkəmə	

DƏRS 2

Ölkəmizdə bir milyondan çox məktəbli, yüz mindən çox müəllim vardır. **Azərbaycan Respublikası Təhsil Nazirliyi** respublikamızın təhsil sahəsində fəaliyyət göstərən dövlət orqanıdır. Təhsillə bağlı qanun və dövlət qərarları bu təşkilat tərəfindən yerinə yetirilir.

Hər bir vətəndaşın sağlamlıq hüququ vardır. İnsanların bu hüququnu təmin etmək üçün **Səhiyyə Nazirliyi** fəaliyyət göstərir. Səhiyyə Nazirliyi ölkə vətəndaşlarının sağlamlığının qorunması üçün lazım olan tədbirləri görür.

Ölkəmizdə **hüquq-mühafizə orqanları** da fəaliyyət göstərir. Adından göründüyü kimi, bu orqanların vəzifəsi cəmiyyətdə qanunların və insan hüquqlarının pozulmasına qarşı mübarizə apar-maq, cinayətkarlığın qarşısını almaqdır.

Bəzən qəzalar, təbii fəlakətlər baş verir. Belə hallarda dərhal insanların köməyinə çatan bir təşkilat var. Bu, **Fövqəladə Hallar Nazirliyidir (FHN)**.

Dövlət Yol Polisi (DYP) idarəsi ölkəmizin avtomobil yollarında qayda-lara əməl olunmasına nəzarət edir.

Ölkəmizin təbiətini, canlılar aləmini qorumaq üçün **Ekologiya və Təbii Sərvətlər Nazirliyi** yaradılmışdır. Bu təşkilat həm də atmosferin təmizliyinə, təbii sərvətlərin mühafizə olunmasına nəzarət edir.

Cəmiyyət üzvləri arasında işləmək qabiliyyəti olmayan qocalar, əlilliyi olan şəxslər vardır. Dövlət onların da qayğısına qalır. **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** bu insanların yaşaya bilməsi üçün onlara pensiya verir.

Respublikamızda bu sadaladığımız təşkilatlardan başqa, digər dövlət orqanları da fəaliyyət göstərir. Dövlət bunların vasitəsilə həyatımızın bütün sahələrini tənzimləyir.

Sual və tapşırıqlar

1. Aşağıdakı simvollar haqqında məlumat toplayın. Bu dövlət orqanları hansı işləri yerinə yetirir?

2. Aşağıdakılardan hansı dövlət orqanı deyil?

a) Milli Məclis
b) Asan xidmət
c) Heydər Əliyev Fondu

3. Daha hansı dövlət orqanlarını tanıyırsınız? Bildiyiniz dövlət orqanlarının adlarını, vəzifələrini yazın və təqdim edin.

Dövlət orqanının adı	Vəzifəsi

4. DÖVLƏT BÜDCƏSİ. VERGİ

DƏRS 1

Dövlət orqanları öz vəzifələrini yerinə yetirmək üçün pul vəsaitini haradan alır?

Dövlət büdcəsi. Sizin artıq ailə büdcəsi haqqında təsəvvürünüz var. Cəmiyyət də ailə kimidir. Dövlət ölkənin müdafiəsi, insanların sağlamlığı, təhsili, elmin, mədəniyyətin inkişafı və digər məsələlər üçün büdcə yaradır. Buna dövlət büdcəsi deyilir. Dövlət büdcəsi ölkənin birillik xərcləri nəzərə alınmaqla təşkil olunur. Bu büdcə də ailə büdcəsi kimi **gəlir** və **xərc** bölümlərindən ibarətdir.

Dövlət büdcəsində xərclər hesablanarkən, əsasən, aşağıdakı istiqamətlər nəzərdə tutulur:

təhsil sahəsində – yeni təhsil müəssisələrinin tikilməsi, məktəb binalarının təmiri, məktəblər üçün ləvazimat alınması, dərsliklərin hazırlanıb çap edilməsi, təhsil işçilərinin maaşlarının verilməsi və s.;

səhiyyə sahəsində – yeni xəstəxana, poliklinika və digər sağlamlıq ocaqlarının tikilməsi, xəstəxana binalarının təmir edilməsi, xəstəliklərə qarşı peyvəndlərin vurulması, səhiyyə işçilərinin maaşlarının verilməsi və s.;

mədəniyyət sahəsində – ölkədə bayramlar, əlamətdar hadisələrlə bağlı tədbirlərin keçirilməsi, görkəmli şəxsiyyətlərin

yubileylərinin qeyd edilməsi, teatr binalarının, konsert salonlarının, mədəniyyət abidələrinin qorunması və s.

Bunlardan başqa, dövlət büdcəsindən pensiyaların, təqaüdlərin verilməsinə, avtomobil yollarının, nəqliyyat sisteminin inkişafına və digər işlərə də pul ayrılır.

Dövlət öz xərclərini düzgün bölməyəndə büdcədə pul qurtarır və başqa dövlətlərdən borc almaq məcburiyyəti yaranır. Xərclərini düzgün bölən ölkələrdə dövlət büdcəsinin həcmi ildən-ilə artır. İnsanlar bunun hesabına daha firavan yaşayırlar.

Sual və tapşırıqlar

1. Aşağıda verilənlərdən hansılarına dövlət büdcəsindən vəsait ayrılır? Cavablarınızı dəftərinizdə qeyd edin.

a) məktəb çantaları üçün
b) dərsliklər üçün
c) sinif otaqlarının təmiri üçün
ç) iş dəftərləri üçün
d) şagird stulları üçün
e) qələmlər üçün

2. Ailə büdcəsi ilə dövlət büdcəsini Venn diaqramında müqayisə edin.



3. Aşağıdakılardan biri dövlət büdcəsinə aid deyil.

a) gəlir
b) xərc
c) yığım

4. Aşağıdakı söz birləşmələrinin mənasını yazın.

dövlət büdcəsi	
büdcə xərcləri	

Dövlət orqanlarının öz vəzifəsini yerinə yetirməsi üçün dövlət büdcəsindən pul vəsaiti ayrılır. Bəs dövlət büdcəsinə bu vəsait haradan toplanır?

DƏRS 2

Vergi. Ailənin büdcəsi ailə üzvlərinin gəlirləri hesabına yaranır. Gəliri olan hər bir ailə üzvü ailə büdcəsinin yaranmasında iştirak edir. Dövlət büdcəsinin də yaranma mənbəyi gəlirlərdir. Dövlətin büdcəsinin formalaşmasında ölkədə əmək fəaliyyəti ilə məşğul olan və gəlir əldə edən hər bir şəxs, hər bir müəssisə iştirak edir.

Dövlət büdcəsinin müəyyən hissəsi **vergilər** hesabına formalaşır. Vergi sahibkarlar, şirkətlər, müəssisələr və vətəndaşların gəlirindən dövlət büdcəsinə ödənilən pul vəsaitidir.



gəlir vergi

Vergini yalnız idarələrdə, şirkətlərdə, müəssisələrdə işləyənlər ödəmirlər. Müğənnilər, rəssamlar, yazıçılar və digər yaradıcı insanlar hər hansı bir müəssisədə işləməsələr də, öz fəaliyyətlərinə görə əldə etdikləri gəlirdən vergi verirlər.

Dövlət büdcəsinə vergi ödəyənlərə **vergi ödəyiciləri** deyilir.

vergi gəlir

İşləmək qabiliyyəti olmayan və əmək qabiliyyətini itirən şəxslərin təqaüd və pensiyasından vergi tutulmur.

Verginin məbləği gəlirdən asılıdır. Gəlir artdıqca verginin məbləği də ona uyğun olaraq artır.

Gəlir

Vergidən yayınmaq qanun pozuntusu sayılır, vergini ödəməyən şəxslər, müəssisələr qanunla cəzalandırılır. Vergi ödəmək hər kəsin vətəndaşlıq borcudur.

Vergi ödənməsə, müəllimlər, həkimlər, alimlər, polislər, hərbçilər və başqaları maaş ala bilməzlər. Axı onların əmək haqları dövlət büdcəsindən verilir.

Elmin, mədəniyyətin, bir sözlə, ölkənin inkişafı həm də vergilərin ödənilməsindən asılıdır. Ölkəmizdə vergilərlə bağlı işlərlə **Azərbaycan Respublikası Vergilər Nazirliyi** məşğul olur.

Sual və tapşırıqlar

1. Dövlət vergiləri ödənilməsə, nə baş verər?

a) Dövlət insanların qayğısını çəkməkdən imtina edər.
b) Dövləti idarə etmək mümkün olmaz.
c) İnsanların ailə büdcəsi artar.

2. Cümləni dəftərinizə köçürüb tamamlayın.

Vergi gəlirdən asılıdır. Bu o deməkdir ki, gəlir artdıqca..... .

3. Aşağıdakılardan hansı vergiyə cəlb olunmur? Cavabınızı izah edin.

a) müəllimlərin maaşı
b) sahibkarların gəliri
c) yaşlıların təqaüdü

4. Aşağıdakı sözlərin mənasını yazın.

gəlir	
vergi	

5. Dövlətin büdcəsinə çoxlu vəsait toplanması üçün hansı daha yaxşıdır? Cavablarınızı izah edin.

vergilərin artırılması	
maaşların artırılması	
iş yerlərinin açılması	

6. Cümləni dəftərinizə köçürüb tamamlayın.

Vergidən yayınanlar qanunla cəzalandırılır, çünki..... .

5. SIĞORTA

Kənddə yaşayan iki qonşu söhbət edirdi. Biri o birinə dedi:

– İstəyirəm meyvə bağı salım, amma ehtiyat edirəm. Deyirəm birdən dolu, ya da leysan yağar, meyvə ağaclarıma ziyan dəyər, onda mən neylərəm? Pulum əlimdən gedər.

O biri qonşu dedi:

– Əgər sən meyvə bağını sığorta etdirsən, ağaclarına ziyan dəysə də, pulun batmaz.

Qonşunun məsləhət gördüyü «sığorta» nə deməkdir? Sığorta bağ sahibinin pulunu necə qoruya bilər?

Sığorta nədir? Sığorta qəzalar, təbii fəlakətlər nəticəsində həyatına, sağlamlığına, mal-mülkünə zərər dəyən insanlara kömək etmək üçün vasitədir.

Sığorta işi ilə sığorta şirkətləri məşğul olur. Bu şirkətlərə **sığortaçı** deyilir. Mal-mülkünü, həyatını sığorta etdirənlər isə **sığortalı** adlanır. Onların arasında müqavilə (razılaşma) bağlanır.

Sığortalı müqavilədə nəzərdə tutulmuş qaydada və vaxtda sığortaçıya müəyyən məbləğdə pul ödəyir. Buna **sığorta haqqı** deyilir.

Müqavilə bağlandıqdan və ilk sığorta haqqı ödəndikdən sonra şəxs sığortalı hesab olunur.

Sığortanın növləri. Sığortanın çoxlu növü var. İnsanlar öz həyatlarını, av-

tomobillərini, evlərini, ofislərini, bir sözlə, gərəkli olan hər şeyi sığorta etdirə bilərlər. Sığortaçıya ziyan dəyəndə sığorta şirkəti onun köməyinə gəlir. Avtomobili əzilərsə, sığorta şirkəti onun təmir xərclərini ödəyir. Evdə yanğın baş verərsə, ev sahibinə dəyən zərər sığorta şirkəti tərəfindən ödənilir.

Sığortanın bir növü də tibbi sığortadır. Tibbi sığortası olan insan xəstələndikdə sığortaçı onun müalicə xərclərini ödəyir.

Sığorta insanların rahat yaşaması üçün vacibdir.

Azərbaycanda indi çoxlu sığorta şirkəti fəaliyyət göstərir.

Sual və tapşırıqlar

1. «Sığortanın növləri» cədvəlini dəftərinizdə çəkib bildiyiniz sığorta növləri barədə yazın.

Növü	Vəzifəsi

2. Sığortaçı sığortalıya dəyən zərəri nə zaman ödəyir? Bunun şərtlərini seçib söyləyin.

Sığortalı sığorta şirkətinə ona dəymiş zərərdən az sığorta haqqı ödədikdə	ödəyir/ödəmir
Zərər dəymiş şəxs şirkətin müştərisi olmadıqda	ödəyir/ödəmir
Sığortalı özünə qəsdən zərər vurduqda	ödəyir/ödəmir
Sığortalı təbii fəlakətdən zərər çəkdikdə	ödəyir/ödəmir
Sığortalıya texnogen qəza nəticəsində ziyan dəydikdə	ödəyir/ödəmir

3. Aşağıdakı hallarda sığorta şirkəti sığortalı üçün nə edə bilər? Cədvəli dəftərinizdə çəkib qarşı sütunda fikirlərinizi yazın.

Sığortalı xəstələndikdə	
Sığortalının mənzili daşqından yararsız hala düşdükdə	
Sığortalı səyahət etmək istədikdə	
Sığortalının avtomobili əzildikdə	
Sığortalı banka əmanət qoyduqda	

6. MİLLİ PUL

DƏRS 1

Milli pulu nə üçün dövlətin atributlarından biri hesab edirlər?



Dünya ölkələrinin pulları. Dünyada elə bir ölkə yoxdur ki, orada puldan istifadə edilməsin. Hər ölkənin öz milli pulu və onu başqa ölkələrin pulundan fərqləndirən işarəsi olur. Milli pul vahidlərinin üzərində onların aid olduğu ölkəyə məxsus əlamətlər və simvollar təsvir edilir. Bunlar tanınmış dövlət xadimlərinin, tarixi şəxsiyyətlərin, memarlıq abidələrinin şəkilləri və digər simvollar ola bilər. Pullar xüsusi kağızdan və metaldan hazırlanır.

1 ABŞ dolları – 1 $

1 Türk lirəsi – 1 ₺

1 Rusiya rublu – 1 ₽

1 avro – 1 €

Türkiyədə Türk lirəsi, Rusiyada rubl, Amerika Birləşmiş Ştatlarında (ABŞ) Amerika dolları bu ölkələrin milli pul vahidləridir.

Bəzən bir neçə ölkənin ərazisində əsas pul kimi eyni pul vahidindən istifadə edilir. Məsələn, avro iyirmiyə yaxın ölkənin əsas puludur. Bu ölkələrin hər birində avro ilə rahat alış-veriş etmək olar.

Sual və tapşırıqlar

1. Tanıdığınız milli pulların adlarını əks etdirən sxem tərtib edin.



2. Çoxlu sayda ölkənin eyni pul vahidindən istifadə etməsinə münasibət bildirin. Sizcə, bu nəyə təsir göstərə bilər?

a) pulların çox tez bir zamanda köhnəlməsinə
b) həmin ölkələrdə turizmin inkişafına
c) həmin ölkələrin inkişafının zəifləməsinə

3. Cümləni dəftərinizə köçürüb tamamlayın.

Milli pulun üzərində ..... təsvir edilir.

DƏRS 2

Azərbaycan manatının işarəsi

Azərbaycan manatı. Ölkəmizin milli pul vahidi Azərbaycan manatıdır. Azərbaycan manatının öz işarəsi vardır.

İşləyən insanların maaşı, yaşlıların pensiyası, tələbələrin təqaüdü yalnız Azərbaycan manatı ilə verilir. Azərbaycan ərazisində əhalinin kommunal xidmətlər üçün etdiyi ödənişlər, mağaza və bazarlarda alış-verişlər də milli pulumuzla yerinə yetirilir.

Kağız pullara əsginas, metal pullara isə qəpik deyilir. Əsginaslarımızın üz tərəfində Azərbaycanın milli, maddi və mənəvi dəyərlərindən nümunələr, arxa tərəfində isə respublikamızın xəritəsi təsvir edilmişdir.

1 manatlıq əsginasın üzərindəki rəsmlər mədəniyyət mövzusuna həsr olunmuşdur. Əsginasın üz tərəfində Azərbaycan milli musiqi alətləri – tar, kamança, qaval və not açarı təsvir olunmuşdur. Arxa tərəfində isə qədim xalça naxışları və Azərbaycanın xəritəsi verilmişdir.

5 manatlıq əsginasın üzərindəki rəsmlər yazı və ədəbiyyat mövzusuna həsr olunmuşdur. Əsginasın üz tərəfində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri, qədim kitablar, Azərbaycanın Dövlət himnindən bir parça və



1 AZN – 1 ₼

müasir əlifbamızın hərfləri əks olunmuşdur. Arxa tərəfində isə Qobustan qaya rəsmləri və qədim türk əlifbası ilə yazı verilmişdir.

10 manatlıq əsginasın üzərindəki rəsmlər Qız qalasını, Şirvanşahlar sarayını – qədim Bakını əks etdirir.

20 manatlıq əsginasın üzərindəki rəsmlər Qarabağ mövzusuna həsr olunmuşdur.

Digər əsginasların da üz və arxa tərəfində Azərbaycana aid simvollar təsvir olunmuşdur. Ona görə də milli pula hörmət və ehtiramla yanaşmaq lazımdır. Onu cırmaq, əzmək öz dövlətinə və milli dəyərlərinə hörmətsizlikdir.

Sual və tapşırıqlar

1. Milli pulumuza aid olanları seçib qeyd edin.

Pulların arxa üzündə ölkəmizin xəritəsi verilmişdir.	bəli/xeyr
Əsginasların üz tərəfində manatın işarəsi vardır.	bəli/xeyr
Pulların üzərində Azərbaycana aid simvollar verilmişdir.	bəli/xeyr
Bütün metal pullara aid əsginaslar buraxılmışdır.	bəli/xeyr
Əsginaslarla onlara uyğun qəpiklərin üzərindəki təsvirlər eynidir.	bəli/xeyr
Əsginasların hamısının arxa üzündə qədim xalça naxışları vardır.	bəli/xeyr

2. Azərbaycan əsginaslarının ümumi təsvirlərini sadalayın.

3. Hansı əsginasın üzərində İçərişəhərin təsviri vardır?

a) 5 manatlığın
b) 10 manatlığın
c) 50 manatlığın

4. 20 manatlıq əsginasın üzərindəki simvolların Qarabağa aid olduğunu əsaslandırın.

7. VƏTƏNDAŞLIQ

Əfsanələrin birində gənc bir oğlan vətənində darıxdığını söyləyib, daha maraqlı həyat axtarışı ilə səyahətə çıxır. Atası onun yol çantasına su, müxtəlif dərman bitkiləri və bir ovuc torpaq qoyur. Deyir ki, bu su sənə qüvvət, otlar şəfa verəcək, torpaq isə səni qoruyacaq.

Gənc çox yerləri dolaşır. Yolda yaralanır, otlardan məlhəm düzəldib yarasına qoyur, qüvvəsi tükənəndə isə sudan içib yoluna davam edir.

Ölkələrin birində oğlanın qarşısını düşmən qoşunu kəsir. O, atasının sözlərini xatırlayıb torpağı düşmənlər tərəfə atır. Gördüyü mənzərədən özü də heyrətlənir. Torpağın hər zərrəsi bir əsgərə çevrilir, nizamlı qoşuna dönüb düşmənin qarşısını kəsir. Oğlan geri qayıdır. Atası nə üçün qayıtdığını soruşanda o öz vətəninin ən gözəl olduğunu söyləyir.

Oğlan nə üçün bu fikrə gəldi?

Vətən və vətəndaş. Öz vətəninin vətəndaşı olmaq şərəflidir. Əsl vətəndaş ölkəsini sevir, ölkəsinin uğurlarını öz uğurları sayır. Vətəninin sevinci onun sevinci, kədəri onun kədəri olur.

Vətən vətəndaşın and yeridir. Vətən müqəddəsdir.

Bir ölkədə yaşayan insanların hamısı onun vətəndaşı olmur. Ölkənin vətəndaşlarına dövlət orqanları tərəfindən vətəndaşlığı təsdiq edən xüsusi sənəd verilir. Belə sənədi olmayanlar ölkədə yaşasalar da, həmin ölkənin vətəndaşı hesab olunmurlar.

Şəxsiyyət vəsiqəsi. Azərbaycan Respublikasının ərazisində doğulanlar ölkənin vətəndaşı sayılır və onlara **şəxsiyyət vəsiqəsi** verilir. Şəxsiyyət vəsiqəsi ölkə daxilində vətəndaşlığı təsdiq edən əsas sənəddir. Şəxsiyyət vəsiqəsində vətəndaşa aid əsas məlumatlar göstərilir. Hər bir vətəndaş şəxsiyyət vəsiqəsini qorumağa borc-

ludur. Şəxsiyyət vəsiqəsi itdikdə onun sahibi dərhal həmin sənədi verən dövlət orqanına müraciət etməlidir.

Siz məktəbə vətəndaşlığınızı təsdiq edən sənədlə qəbul edilmisiniz. Həmin sənədə əsasən sizi kitabxanada, poliklinikada qeydiyyata alırlar.

Pasport. Azərbaycan Respublikası vətəndaşının pasportu Azərbaycan Respublikasının ərazisindən kənarda vətəndaşın şəxsiyyətini təsdiq edən sənəddir. Ölkədən çıxmaq və ölkəyə daxil olmaq üçün vətəndaşa pasport lazımdır.

Vətəndaşın vəzifələri. Dövlət irqindən, milliyyətindən, dinindən, cinsindən və s. asılı olmayaraq, bütün vətəndaşlarına bərabər hüquqlar verir.

Dövlət vətəndaşların öz hüquqlarından istifadə etmələrinə şərait yaradır, onları müdafiə edir.

Vətəndaşın da dövlət və cəmiyyət qarşısında vəzifələri vardır. Bu vəzifələrdən ən vacib olanları aşağıdakılardır:

– Azərbaycan Respublikasının hər bir vətəndaşı dövlət rəmzlərinə hörmət etməlidir.
– İşləyən, gəliri olan vətəndaşlar dövlətə vergi ödəməlidirlər.
– 18 yaşına çatmış oğlanlar vətəni müdafiə etmək üçün hərbi xidmətə getməlidirlər.
– Hər bir vətəndaş tarixi abidələri, mədəniyyət abidələrini, ətraf mühiti qorumalıdır.

Azərbaycan Respublikasının Dövlət gerbi və Dövlət bayrağı oturulan və ayaq basılan yerlərdə təsvir edilə bilməz.

Dövlət himni başqa dildə oxuna bilməz. Dövlət himninin sözlərini dəyişmək olmaz.

Bu tələbləri pozan şəxslər qanun qarşısında məsuliyyət daşıyırlar.

Sual və tapşırıqlar

1. Şəxsiyyət vəsiqəsi nə üçündür?

a) şəxsin həmin ölkədə yaşadığını göstərmək üçün
b) şəxsin ölkənin vətəndaşı olduğunu təsdiq etmək üçün
c) şəxsin ölkədə yaşamasına icazə verilməsi üçün

2. Cümləni dəftərinizə köçürüb tamamlayın.

Şəxsiyyət vəsiqəsi ..... əsas sənəddir.

3. Aşağıdakı cədvəldə göstərilənlərdən hansıları Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinə aiddir? Fikrinizi izah edin.

Şəxsiyyət vəsiqəsi haqqında	Cavab	İzahı
Ölkədə yaşayan hər bir şəxsə təqdim edilir.	xeyr	Bu sənəd yalnız ölkə vətəndaşlarına verilir.
Şəxsiyyəti təsdiq edən sənəddir.	bəli/xeyr	
Yalnız 18 yaşı tamam olmuş şəxslərə verilir.	bəli/xeyr	
Bu sənədlə ölkədən kənara da getmək olar.	bəli/xeyr	

4. Pasportla şəxsiyyət vəsiqəsinin fərqini yazın.

5. Vətəndaşın vəzifələrinə aid cədvəli dəftərinizdə çəkib işləyin və təqdim edin.

Vətəndaşın vəzifələri	Fəaliyyətlər
	hərbi xidmətə getmək
Dövlət rəmzlərinə hörmət etməlidir.	
	vergi ödəmək
Tarixi abidələri, mədəniyyət abidələrini, ətraf mühiti qorumalıdır.	

Səməd Vurğun. «Azərbaycan» şeiri
Əhməd Cəmil. «Vətən» şeiri

MƏNƏVİ DÜNYAMIZ

8. İSRAF VƏ QƏNAƏT

Anası Ayanı çörək almağa göndərdi. Ayan qapıdan çıxanda ana onu arxadan səslədi:

– Qızım, bir çörək alarsan ha!

Ayan dedi:

– Axı biz həmişə iki çörək alırıq.

– Atanla qardaşın kəndə babangilə gediblər. İkisini alsan, israfçılıq olar.

Anası Ayana nə üçün belə dedi?

DƏRS 1

İsraf. Bir şeyi lazım olduğundan artıq sərf etmək israfdır. Məsələn, yeyə biləcəyinizdən artıq hazır yeməklər, şirniyyat, dondurma almaq israfçılıqdır. Çanta, dəftər, qələm və başqa şeyləri ehtiyac olmadan vaxtaşırı yeniləmək də pulu israf etməkdir.

İsrafçılıq yalnız pula aid deyil. Vaxtı da israf etmək olar. Televizor, kompüter qarşısında uzun-uzadı oturub verilişlərə baxmaq, oyun oynamaq vaxtı israf etməkdir. Vaxtını israf edənlər zaman keçdikdən sonra bunun peşmançılığını çəkirlər.

Səxavət. Bəzi insanlar israfçılıqla səxavətli olmağı qarışdırırlar. İsrafçılıq yaxşı keyfiyyət deyil. Səxavətli olmaq isə müsbət keyfiyyətdir.

Bu uşaqlar eyni vaxtda iki pis hərəkətə yol verirlər.

Sizcə, bunlar hansı hərəkətlərdir?

Kimlərə səxavətli demək olar? Səxavətli insanlar özlərinə aid olan şeyləri başqaları ilə bölüşməyi xoşlayırlar. Məsələn, iki almanız varsa, onun birini yoldaşınıza vermək səxavətdir. Bir qoğalınız varsa və onun yarısını dostunuza verirsinizsə, demək, səxavətlisiniz.

Səxavətli insan başqalarına kömək edir və bundan zövq alır. O, çətin vəziyyətə düşən insanlara öz vəsaiti ilə yardım edir. Belə insanlara xeyriyyəçi deyirlər.

Səxavət yalnız mal-mülklə, pulla ölçülmür. Çox məşğul insan vaxtını yardıma ehtiyacı olan birinə sərf edib, onun problemi ilə maraqlanırsa, bunun özü də səxavətdir. Nahaq yerə deyilmir ki, vaxt qızıldan da qiymətlidir.

Sual və tapşırıqlar

1. İsrafçılığın mənfi nəticələrini müəyyən edin.

İsraf edilənlər	Nəticəsi
pul	
vaxt	
əşyalar	

2. «Tərifli sözləri də israf etmək olur». Bu ifadəni necə başa düşürsünüz? Fikirlərinizi dəftərinizdə yazın.

3. Cümləni dəftərinizə köçürüb tamamlayın.

Səxavətli insan israfçıdan onunla fərqlənir ki, ...

4. Aşağıdakılardan biri xeyriyyəçilik deyil.

a) tələbələrə təqaüd vermək
b) qonşulara qonaqlıq vermək
c) tanımadığın bir xəstəni müalicə etdirmək

İvan Krılov. «Cırcırama və qarışqa» şeiri. Tərcümə edən Abdulla Şaiq

«İtirilmiş vaxt haqqında nağıl» bədii filmi. Xarici filmlər Azərbaycan dilində (www.azerikino.com)

«Süleyman şah və qarışqa» adlı nağılda qarışqa şaha deyir ki, ildə cəmi bircə buğda dənəsi ona bəs edir. Şah qarışqaya inanmır. Onlar mərc gəlirlər. Qarışqanı bircə buğda dənəsi ilə birlikdə şüşə qaba salıb ağzını bağlayırlar. Bir müddət sonra şah qarışqanı tamam yaddan çıxarır. Mərc barədə xatırlayanda artıq bir ildən də çox vaxt keçmiş olur. Şah unutqanlığına görə özünü qınayır, qarışqanın ölümünə bais olduğunu düşünüb kədərlənir. Şüşə qabı onun yanına gətirirlər. Şah qarışqanın sağ olduğunu görüb çox sevinir və ondan soruşur:

– Bir ildən çox vaxt keçib, bircə buğda dənəsi ilə sən necə sağ qaldın?

Qarışqa deyir:

– Qorxurdum ki, məni unudarsan, ona görə də qənaətlə dolandım. Sağ qalmağımın səbəbi qənaətcil olmağımdır. Hələ buğda dənəsindən bir az da saxlamışam.

Şah qarışqanın ağlına heyran olur və fikirləşir ki, dövlət büdcəsinə də qənaət etmək lazımdır.

Qənaətin faydası nədir?

DƏRS 2

Qənaət. İsrafın əksi qənaətdir. Qənaət əlində olan hər şeyin qədrini bilmək, qorumaq və ondan qədərində istifadə etməkdir.

Xatırlayırsınızsa, 2-ci sinifdə «Cibxərcliyi» adlı mətndə kiçik qardaş atasının verdiyi cibxərcliyini bir gündə xərcləyib pulsuz qalmışdı. Böyük qardaş isə pulunu qənaətlə xərclədiyi üçün ehtiyat pul toplamışdı. O, qənaət hesabına topladığı puldan kiçik qardaşına birhəftəlik cibxərcliyi də vermişdi.

3-cü sinifdə isə «Ailə büdcəsi» adlı mətndə qənaət haqqında oxumusunuz. Orada deyilirdi ki, məişətdə su, təbii qaz, elektrik enerjisi qənaətlə

istifadə ediləndə əlavə pul ehtiyatı – yığım yaranır və yığım ailənin daha firavan yaşamasına səbəb olur. Qənaətin faydası böyükdür. Qənaətcillik hər bir insana, ailəyə, hətta dövlətə lazım olan keyfiyyətdir.

Xəsislik. Bəziləri xəsisliyi qənaətcilliklə qarışdırırlar, lakin bunlar ayrı-ayrı anlayışlardır. Qənaətcillik yaxşı xüsusiyyətdir, xəsislik isə yox.

Xəsis insanı sevmirlər. Xeyirxah işlər görmədiyinə görə heç kim ona qarşı minnətdarlıq hissi duymur.

Xəsis öz mal-mülkünü heç kimlə bölüşmək istəmir. O, pulunu nəinki ehtiyacı olanlara, ailə üzvlərinə, hətta özünə belə xərcləmir. Xəsis insan bununla sağlamlığına da, nüfuzuna da ziyan vurur.

Bir kişi yolla ayaqyalın gedəndə ayağına mismar batır. Onun ayağından qan axır. Kişi mismarı çıxara-çıxara düşünür: «Yaxşı ki, ayaqqabım ayağımda deyildi, yoxsa deşilərdi».

Kişinin bu hərəkətini necə adlandırmaq olar: qənaətcillik, yoxsa xəsislik? Fikrinizi əsaslandırın.

Sual və tapşırıqlar

1. «Biz nələrə qənaət etməliyik?» adlı cədvəli dəftərinizdə çəkib işləyin.

Qənaət etmək	Nəticəsi

2. «Qənaətcil olmağın faydası» adlı esse yazın.

3. Cümləni dəftərinizə köçürüb tamamlayın.

Qənaətcil insan xəsisdən onunla fərqlənir ki, ...

«Xəsis culfa və keçəl», «Süleyman şah və qarışqa» nağılları.
Əbdürrəhim bəy Haqverdiyev. «Diş ağrısı» hekayəsi (fraqment)

«Dünyada su» cizgi filmi

9. DOĞMA VƏ ÖGEY MÜNASİBƏT

Yunis hər gün evdəki zibili aparıb evdən bir qədər aralıda yerləşən zibil yeşiyinə atmağı öhdəsinə götürmüşdü. O, bir neçə dəfədən sonra zibil yeşiyinə qədər getməyə tənbəllik etdi və zibili yaxınlıqdakı çayın kənarında gözdənuzaq bir yerə atmağa başladı. Yunis fikirləşirdi ki, əsas iş zibili evdən çıxarmaqdır.

Bir gün Yunisin anası şikayətləndi ki, milçək yaman çoxalıb. Qonşular da pis qoxudan və milçəklərdən şikayətlənirdilər. Onlar bunun səbəbini araşdırdılar. Məlum oldu ki, Yunisin hər gün atdığı zibil çayın kənarında zibillik yaradıb. O peşman olmuşdu. Zibili çayın kənarına atarkən belə olacağını heç ağlına gətirmirdi.

Yunisin hərəkətinə nə ad vermək olar?

Bumeranq. Bumeranq adlanan bir alət vardır. Keçmişdə insanlar onunla quşları ovlayırdılar. İndi bumeranqdan bəzi ölkələrdə idman aləti kimi istifadə olunur. Bumeranqın çox qəribə xüsusiyyəti var. Onu havaya atırlar, uçub gedir və bir qədər sonra geri, yəni onu atanın üstünə qayıdır. Təbiətdə və cəmiyyətdə münasibətlər də buna bənzəyir. Doğma münasibət yaxınlıq, ögey münasibət isə soyuqluq yaradır. Ola bilər ki, bunun nəticələri özünü dərhal göstərməsin, ancaq zaman keçdikcə insan öz əməlinin nəticəsini görüb sevinir, yaxud da peşman olur. Elə işlər görmək lazımdır ki, sonradan öz əməlinə görə utanmayasan.



Şəxsi və ümumi. Siz yalnız öz həyətinizi, evinizi təmiz saxlayır, lakin gedib-gəldiyiniz küçəni zibilləyirsinizsə, əslində, özünüzə ziyan vurursunuz.

Elə uşaqlar var ki, yol kənarında, meşədə gülləri, ağacları qırırlar. Küçədə, parkda yerə tum qabıqları, dondurma, konfet kağızı atır, ictimai nəqliyyatda oturacaqları cızırlar. Bu uşaqlar anlamırlar ki, evlərini qoruduqları kimi məktəblərini, istirahət etdikləri parkın təmizliyini də qorumalıdırlar. Onların hər gün istifadə etdikləri ictimai nəqliyyat, keçib getdikləri küçə, kölgə salan ağac, yol qırağında əkilmiş güllər hamının, yəni həm də onlarındır. Hamıya aid olan şeylərə doğma münasibət bəsləmək hər bir kəsin borcudur.

İnsanın özünün qaydalara əməl etməsi azdır, o, ətrafındakıları da buna çağırmalıdır. Bu, onun ailə, cəmiyyət və Vətən qarşısında borcudur.

Sual və tapşırıqlar

1. Mətndə adı çəkilən bumeranq aləti hansı xüsusiyyətinə görə misal göstərilir?

a) idman aləti kimi istifadəsinə görə
b) ov aləti olmasına görə
c) atıldığı yerə geri qayıtmasına görə

2. «Bunlar həm də mənimdir» adlı sxemi dəftərinizdə çəkib işləyin.



Mirmehdi Seyidzadə. «Ağacların şikayəti»

Ətraf mühitin qorunması ilə bağlı cizgi filmi

10. MƏSULİYYƏT HİSSİ

Aynurgilin evlərinin yanında yeni tikilən binanın birinci mərtəbəsini şarlarla bəzəmişdilər. Qapıya iri hərflərlə «Dərzixana» sözü yazılmışdı. Aynurun anası sevindi ki, dərziyə ehtiyac olsa, uzağa getməz.

Bir neçə gün sonra Aynur anası ilə mağazaya gedəndə orada qəşəng bir don gördü. Don onun əyninə bir az böyük idi. Kiçik ölçü olmadığından onu alıb, düzəltmək üçün evin yanındakı dərziyə verdilər. İki gündən sonra donu götürüb evə gətirəndə Aynur gözünün yaşını saxlaya bilmədi. Dərzi onun donunu düzəltmək əvəzinə korlamışdı.

Bu hadisədən bir neçə ay sonra qapının üzərində «Dərzixana» sözü gözə dəymədi. Məlum oldu ki, dərzi işini dayandırıb və həmin yerdə bir saç ustası işləməyə başlayıb.

Sizcə, dərzixana nə üçün bağlandı?

Məsuliyyət nə deməkdir? Məsuliyyət hissi müsbət keyfiyyətlərdən biridir. Məsuliyyətli insan gördüyü işin nəticəsinə görə məsuliyyət daşıyır. O, üzərinə düşən işləri vaxtında və keyfiyyətlə yerinə yetirir, kiminsə ona görə ziyan çəkməsinə yol vermir. Həmişə yalnız sevdiyi və bacardığı işlə məşğul olur. Öz üzərində işləyir, cəmiyyətdən geri qalmamağa çalışır.

Cəmiyyətdə hər kəsin öz məsuliyyəti var. Valideyn övladının sağlamlığına, tərbiyəsinə və təhsilinə görə məsuliyyət daşıyır. Məsuliyyətli müəllim çalışır ki,

şagirdləri hər gün yeni biliyə, bacarığa yiyələnsin. Məsuliyyət hissi olan həkim insan həyatı üçün cavabdeh olduğunu unutmur. Mühəndisdən tutmuş dərziyə, bərbərə qədər hər kəs öz işinin məsuliyyətini dərk edərsə, belə cəmiyyətdə hamı özünü rahat hiss edər.

Cəmiyyət məsuliyyətli insanların sayəsində inkişaf edir.

Məsuliyyətsiz olmağın zərəri. Məsuliyyətsizlik – məsuliyyət hissinin olmamasıdır. Bir uşaq yol hərəkəti qaydalarını bildiyi halda onu pozursa, heç bir səbəb olmadan dərslərə yaxşı hazırlaşmırsa, demək, məsuliyyətsizdir. Ətraf mühitə ögey münasibət bəsləmək də məsuliyyətsizlikdən doğur.

Məsuliyyət hissinin olmaması insanın özünə çox ziyan vurur. Məsuliyyətsiz insana heç kim güvənmir. Ətrafındakı insanların etibarını itirmək istəməyən hər kəs məsuliyyət hissini unutmamalıdır. Cəmiyyətdə uğur əldə etmək üçün əvvəlcə gərək insanların etibarını qazanasan.

Sual və tapşırıqlar

1. Məsuliyyət hissinə aid olanları seçib dəftərinizə yazın.

insanlara yaxşı xidmət göstərmək, çoxlu pul qazanmaq, məşhur olmaq, vergi ödəmək, dərsdən əlavə məşğələlərə qatılmaq, avtobusda tutacaqdan yapışmaq, mehriban olmaq, dərsə gecikmək, sağlamlığını qorumaq, dərslərində geri qalan yoldaşlarına kömək etmək, səxavətli olmaq

2. «Mən şagird olaraq davranışlarıma görə necə məsuliyyət daşıyıram?» adlı esse yazın.

3. Aşağıdakı cədvəli dəftərinizdə çəkib işləyin.

Məsuliyyətsizlik necə ziyan vurur?	
İnsanın özünə	Ətrafdakılara

Abdulla Şaiq. «Usta Bəxtiyar» hekayəsi

11. ƏDƏB QAYDALARI

Nüfuzlu bir şirkət peşəkar mütəxəssis axtarırdı. İşə ehtiyacı olan iki gənc şirkətə gəlib işləmək istədiyini bildirdi. Şirkət rəhbərliyi bir təcrübəli əməkdaşına tapşırdı ki, onları yoxlasın. Gənclərlə xeyli söhbət aparıldı. Onlardan biri ayaqlarını bir-birinin üstünə aşırıb saymazyana əyləşmişdi. O, tez-tez müsahibinin sözünü kəsirdi, amma suallara yaxşı cavab verirdi. İkinci gənc isə çox ədəbli, təmkinli davranırdı, həm də sualların hamısını cavablandırırdı. Hər iki gənc suallara eyni səviyyədə cavab versə də, işə ikinci gənci götürdülər.

İşə nə üçün birinci gənci götürmədilər?

Ədəbli insan necə davranır? Ədəb qaydaları mədəniyyətimizin göstəricisidir. Azərbaycanlılar ədəb-ərkanı yüksək qiymətləndirir, ədəbli insanlara hörmət edirlər. Danışan şəxsin sözünü yarımçıq kəsmək ədəbsizlikdir. Ədəbli insan söhbət zamanı danışana mane olmur, onun danışıb qurtarmasını səbirlə gözləyir, verilən sualı axıra qədər dinlədikdən sonra cavablandırır.

Kənar şəxslərin söhbətinə qarışmaq, qulaq asmaq ədəb qaydalarına ziddir. Parkda, ictimai nəqliyyatda ucadan danışmaq ədəbli insana yaraşmayan hərəkətdir.

Nalayiq sözlər işlətmək, söyüş söymək də ədəb qaydalarına ziddir. Ədəbli insan nəzakətli olur, qeybət* etmir, danışarkən əli ilə həmsöhbətinin çiyninə, qoluna toxunmur.

---

* *Qeybət* – birinin dalınca danışmaq, onu pisləmək

Söhbət edərkən telefonla məşğul olmaq yaxşı hərəkət deyil. Danışarkən saçı ilə oynamaq, barmaqlarını şaqqıldatmaq, çiyinlərini oynatmaq, burnunu qurdalamaq da ədəb qaydalarına ziddir.

Nəqliyyatda təsadüfən kiməsə toxunduqda həmin anda üzr istəmək lazımdır. Ədəbli insanlar kiminsə əşyasını götürmək istədikdə mütləq ondan icazə alırlar.

Ədəb qaydalarına əməl etmək nə üçün vacibdir? Ədəb-ərkan qaydalarına əməl etməyən insan sevilmir. Ətrafdakılar bu cür insandan kənar durmağa çalışırlar, onu mötəbər məclislərə dəvət etmirlər. Hərəkətlərində ədəb gözləməyən insanlar pis vəziyyətə düşür, bəzən gülüş hədəfinə çevrilirlər.

Sual və tapşırıqlar

1. Şəkillərdəki uşaqların davranışını izah edin və münasibət bildirin.



2. «Ədəbli insan, ilk növbədə, özünə hörmət edir» ifadəsini necə açıqlaya bilərsiniz?

3. Cümləni tamamlayıb dəftərinizə köçürün.

Ədəb qaydalarına əməl etmək vacibdir, çünki..... .

4. Cədvəli dəftərinizdə çəkib işləyin.

Ədəbli insan	
Ona aid olan keyfiyyətlər	Ona aid olmayan keyfiyyətlər

«Qarğa balası və özgə yuvası», «Etiket» cizgi filmləri

12. İSLAM DİNİNİN YARANMASI

570-ci ildə Ərəbistan yarımadasında yerləşən Məkkə şəhərində bir oğlan uşağı dünyaya gəldi. O, ərəblər arasında böyük nüfuzu olan Qureyş qəbiləsindən idi. Məkkə şəhərinin hakimi bu qəbilənin üzvləri arasından seçilirdi.

Həmin vaxt Məkkədə bir məbəd vardı. Adına Kəbə* deyirdilər. Məbədə taxtadan və daşdan düzəldilmiş bütlər* qoyulmuşdu. Ərəblər buranı müqəddəs sayır, bütlərə sitayiş* edir, onlardan kömək umurdular. Heç kimin ağlına gəlmirdi ki, Qureyş qəbiləsində yeni doğulan uşaq böyüyəndə ərəblərin bütlərə sitayiş etməsinə son qoyacaq, onları Allahın varlığına və təkliyinə inandıracaqdır.

Bu uşaq kim idi?

DƏRS 1

Ərəbistan yarımadası, Məkkə, Kəbə, peyğəmbər

Məhəmməd peyğəmbərin uşaqlığı və gəncliyi. Qureyş qəbiləsində dünyaya gələn bu uşağın adını Məhəmməd qoydular. O, doğulmamışdan əvvəl atası, altı yaşına çatanda isə anası vəfat etdi. Məhəmməd anasının ölümündən sonra babası Əbdül Müttəlibin himayəsinə keçdi. Babası vəfat edərkən balaca Məhəmmədi əmilərindən biri olan Əbu Talibə tapşırdı. Əbu Talib çox mərhəmətli insan idi. O, Məhəmmədi qəbul edib, öz övladı kimi sevdi.

Məhəmməd uşaq yaşlarından zəhməti sevir, gücü çatan işləri görürdü. Həmin dövrdə Məkkə məşhur ticarət mərkəzlərindən biri idi. Qureyş qəbiləsinin üzvləri də ticarətlə məşğul olurdular. On iki yaşı olanda Məhəmməd əmisi Əbu Taliblə birlikdə karvanla Suriyaya getdi. Bu səfərlər zamanı o, ticarət işinin sirlərini dərindən öyrəndi.



İyirmi yaşına çatanda Məhəmməd Xədicə adlı varlı bir qadının

---

* *Kəbə* – kub sözündəndir. Məbəd kuba bənzədiyi üçün onu belə adlandırırdılar.
* *Büt* – müqəddəs hesab edilən heykəl, əşya
* *Sitayiş* – ibadət etmək

yanında işləməyə başladı. O, Xədicənin mallarını satmaq üçün karvanla başqa şəhərlərə aparırdı. Qısa müddətdə Məhəmməd Xədicənin etibarını qazandı. Onlar həyatlarını birləşdirib xoşbəxt ailə qurdular. Xədicə Məhəmmədin peyğəmbərliyinə inandı və ona dəstək oldu.

Peyğəmbər. Məhəmməd peyğəmbər ətrafındakı insanlara Allah, din, iman, xeyir, şər, mərhəmət haqqında danışmağa başladı. Onları taxtadan və daşdan düzəldilmiş bütlərə deyil, tək olan Allaha inanmağa çağırdı.

Torpağa düşmüş toxum cücərən kimi, islam dini də yavaş-yavaş insanların qəlbində özünə yer etdi. Məhəmməd peyğəmbərdən sonra onun həyat yoldaşı Xədicə, daha sonra ona ən yaxın olan qohumları və dostları islam dinini qəbul etdilər. Buna baxmayaraq, qəbilə üzvlərinin çoxu hələ də bütlərə sitayiş edirdi. Onlar birləşib Məhəmməd peyğəmbəri və onun tərəfdarlarını incitməyə başladılar.

Sual və tapşırıqlar

1. Mətnə əsasən hadisələri xronoloji ardıcıllıqla düzün.

1) Əbu Talib Məhəmmədi öz ailəsinə qəbul etdi.
2) Məhəmməd babası Əbdül Müttəlibin himayəsinə keçdi.
3) Məhəmmədin atası vəfat etdi.
4) Məhəmməd əmisi ilə Suriyaya getdi.
5) Məhəmməd Xədicə ilə xoşbəxt ailə qurdu.
6) Məhəmmədin anası vəfat etdi.

2. Mətnə əsasən Kəbə haqqında doğru olanların qarşısında *D*, yanlış olanların qarşısında *Y* yazın.

Kəbə	Cavab
Müsəlmanların ziyarətgahı idi.	
Kub sözündəndir.	
Yəhudilərin ziyarətgahı idi.	
Məkkə şəhərində yerləşir.	
Bütpərəstlərin ziyarətgahı idi.	
Xristianların ziyarətgahı idi.	
Ərəblər onu müqəddəs sayırdılar.	

3. Aşağıda göstərilənlərdən hansı doğru deyil?

a) Məhəmməd uşaq yaşlarından zəhməti sevirdi.
b) Məhəmməd ticarətin sirlərini dərindən öyrəndi.
c) Bütün qəbilə üzvləri Məhəmmədin peyğəmbərliyinə dərhal inandılar və gətirdiyi dini qəbul etdilər.

DƏRS 2

Yəsrib, Mədinə, hicrət, hicri təqvimi, islam

Məhəmməd peyğəmbərin təqib olunması. İndiki Mədinə şəhərini ərəblər o zaman Yəsrib adlandırırdılar. Yəsribdən insanlar gəlir, Məhəmmədi peyğəmbər kimi tanıyıb, onun gətirdiyi dini qəbul edirdilər. Yəsrib sakinləri peyğəmbəri öz şəhərlərinə dəvət edirdilər. Məkkədə isə bütpərəstlər müsəlmanları çox incidirdilər. Onların düşmənçiliyi üzündən Məhəmməd peyğəmbər öz tərəfdarlarını Yəsribə göndərməyə məcbur oldu. Beləliklə, müsəlmanlar köçüb Yəsribə toplaşdılar və peyğəmbəri orada gözləməyə başladılar.



Hicrət. 622-ci ilin bir payız günü Məhəmməd peyğəmbər Yəsrib şəhərinə gəldi. Onun Məkkədən Yəsribə, yəni Mədinəyə köçməsi «hicrət» adlanır. Müsəlman təqvimi həmin tarixdən başlayır. Bu təqvimə «hicri təqvimi» deyilir.

Müsəlmanların islam uğrunda mübarizəsi daha səkkiz il davam etdi. Bu mübarizənin sonunda onlar qalib gəldilər və qan tökmədən Məkkə şəhərinə daxil oldular. Məhəmməd peyğəmbər üzünü Məkkə sakinlərinə tutub dedi: «Allah təkdir. Allahdan başqa Allah yoxdur. Allah qarşısında hamı bərabərdir. Biz hamımız Adəmin övladlarıyıq, qardaşıq».

Məkkə əhalisi islamı qəbul etdi. İslamı qəbul edənlərin sayı gündən-günə artdı və islam dini möhkəmləndi.

Beləliklə, Məhəmməd peyğəmbər öz tərəfdarları ilə birlikdə islam qanunları ilə idarə olunan dövlətin əsasını qoydu.

Sual və tapşırıqlar

1. Yəsrib şəhəri haqqında məlumatlardan hansı doğru deyil?

a) Yəsrib ərəb şəhəri idi.
b) Yəsribdə müsəlmanları incidirdilər.
c) Yəsrib qonaqpərvər şəhər idi.

2. Doğru və yanlışı seçin. Yanlışı düzəldin.

Hadisə	Cavab
Hicrət Məhəmməd peyğəmbərin Məkkədən Mədinəyə köçməsidir.	doğru/yanlış
Məkkədə bütpərəstlər müsəlmanları incidirdilər.	doğru/yanlış
Yəsrib şəhəri o zaman Mədinə adlanırdı.	doğru/yanlış
Müsəlman təqviminin tarix göstəricisi Məkkənin fəthindən başlayır.	doğru/yanlış
Yəsrib sakinləri Məhəmməd peyğəmbəri öz şəhərlərinə dəvət etdilər.	doğru/yanlış
Müsəlmanlar səkkizillik mübarizədən sonra qalib gəldilər və Mədinə şəhərinə daxil oldular.	doğru/yanlış

3. Məkkə şəhəri neçənci ildə fəth edildi?

a) 622-ci ildə
b) 628-ci ildə
c) 630-cu ildə

4. «Məhəmməd peyğəmbərin həyatı» adlı esse yazın.

13. AZƏRBAYCANDA DİN



Aslan və Bahar babaları ilə birlikdə həcc mərasimindən bəhs edən televiziya verilişinə baxırdılar. Uşaqlar babadan həcc ziyarətinin nə zaman yerinə yetirildiyini soruşdular. Baba dedi:

– Hər il müsəlman ölkələrində, o cümlədən Azərbaycanda Qurban bayramı qeyd olunur. Həcc ziyarəti də Qurban bayramı zamanı yerinə yetirilir.

Ölkəmizdə islam dini ilə bağlı olan başqa hansı günlər qeyd olunur?

Ölkəmizdə islam dini ilə bağlı qeyd olunan gün və bayramlar. Ramazan və Qurban bayramları müsəlmanların müqəddəs bayramlarıdır.

Ramazan hicri təqvimindəki on iki aydan birinin adıdır. İslam dininə etiqad edənlər inanırlar ki, bu dinin müqəddəs kitabı «Quran» Ramazan ayında nazil* olmuşdur.

Ramazan ayına «orucluq ayı» da deyirlər. İslam dininə görə, Ramazan ayı başlayandan bitənə qədər müsəlmanlar oruc tutmalıdırlar. Oruc tutanlar gündüz vaxtı qida qəbul etmirlər. Azərbaycanda Ramazan bayramı iki gün qeyd edilir.

Ölkəmizdə islam dini ilə bağlı qeyd edilən ikinci böyük bayram Qurban bayramıdır. Qurban bayramında müsəlmanlar Məkkə şəhərinə müqəddəs həcc ziyarətinə gedirlər. Bu bayramda hər bir imkanı çatan müsəlman qurban (dəvə, camış, inək, qoyun və keçi) kəsir, ətini ehtiyacı olanlara paylayır. Azərbaycanda Qurban bayramı da iki gün qeyd edilir.

Ölkəmizdə hər il «məhərrəmlik» deyilən dini mərasim də qeyd olunur. «Məhərrəm» hicri təqviminin ilk ayının adıdır. Məhərrəmlik mərasimi Məhəmməd peyğəmbərin nəvəsi Hüseynin və onun ailə üzvlərinin öldürülməsi

---

* *Nazil olma* – dini etiqadlara görə, Allah tərəfindən göydən enmə

ilə bağlıdır. Bu, məhərrəm ayının onuncu günündə baş vermişdir və «Aşura», yəni «onuncu gün» adlandırılır. Azərbaycanda Aşura günü «Qan ver, həyat xilas et» çağırışı ilə ehtiyacı olan xəstələr üçün qan verməklə qeyd olunur.

Dini tolerantlıq nədir? İslam dini Azərbaycanda yayılmamışdan öncə burada əhali müxtəlif dinlərə etiqad edirdi. Sonralar əhalinin çox hissəsi islam dinini qəbul etdi.

Hazırda ölkəmizdə müxtəlif dinlərə etiqad edən insanlar yaşayır. Azərbaycanda müsəlmanların çoxluq təşkil etməsinə baxmayaraq, başqa dinlərə mənsub olanlara hörmətlə yanaşılır. Bu, Azərbaycan xalqının tolerantlığıdır.

İslam dini insanları sülhə, bərabərliyə çağırır. İslamın müqəddəs saydığı dəyərlərin çoxu yəhudi və xristian dinlərində də var. Öz həyatını bu dəyərlər üzərində quran insanlar yüksək mənəviyyata sahib olurlar. Belə insanların yaşadığı cəmiyyətdə hamı sülhə, əmin-amanlığa və düzgünlüyə can atır.

Hər bir insan çalışmalıdır ki, öz dinini gözdən salan hərəkətlər etməsin.

Sual və tapşırıqlar

1. Həcc mərasimi nə zaman icra olunur?

a) Ramazan bayramı ərəfəsində
b) Məhərrəm ayında
c) Qurban bayramı ərəfəsində

2. «İslam dini ilə bağlı bayramlar ölkəmizdə necə qeyd edilir?» adlı mətn tərtib edin.

3. Müsəlmanlar Ramazan ayını başqa cür necə adlandırırlar? Fikrinizi izah edin.

4. Tolerant olmaq nədir?

a) öz dinini başqa dinlərdən üstün tutmaq
b) başqa dinləri qəbul etmək
c) başqa dinlərə hörmətlə yanaşmaq

5. «Azərbaycan tolerant ölkədir» adlı esse yazın və təqdim edin.

14. MÖVHUMATÇILIQ

İki rəfiqə alış-verişə getmək üçün görüşməyi planlaşdırmışdılar. Rəfiqələrdən biri zəng edib bildirdi ki, bu gün alış-verişə getməyəcək, çünki qapıdan çıxarkən qonşu ilə üz-üzə gəlib. Həmin qonşu ilə rastlaşanda onun işi düz gətirmir.

Rəfiqəsi gülərək onu mövhumatçı adlandırdı.

Sizcə, o nə üçün rəfiqəsinə mövhumatçı dedi?

DƏRS 1

Mövhumat nədir? «Mövhumat» yanlış, həqiqətə uyğun olmayan təsəvvürlərdir. Bəzi insanlar mövhumatçı olurlar. Məsələn, at nalının uğur gətirdiyinə inanan insanlar var. Onlar at nalını qapının üstünə asmaqla evlərinə və ailə üzvlərinə xoşbəxtlik gələcəyinə ümid edirlər.

Yonca bitkisi üçyarpaqlıdır. Nadir hallarda dördyarpaq yoncaya da rast gəlmək olur. Mövhumatçı insanlar belə yonca ilə rastlaşanda bunu uğur əlaməti hesab edirlər.

Bəzi insanlar 13 rəqəminin uğursuzluq, qara rəngin bədbəxtlik gətirdiyinə inanırlar. Bəziləri isə qara pişiyin qarşıdan keçməsini uğursuzluq əlaməti hesab edirlər.

Elə insanlar var ki, evdə güzgü sınanda bunu bədbəxtlik əlaməti kimi qəbul edib məyus olurlar.

Bir işdən danışanda «tək səbir» gəlirsə, o işin uğursuz olacağını düşünənlər də var.

Bütün bunlar, əslində, uydurmadır, çünki hər uğursuz-

luğun səbəbi olur. Uşaq dərslərini yaxşı oxumursa, təbii ki, o, sınaq imtahanlarında yaxşı nəticə göstərməyəcək. Uşağın sınaqlardan keçə bilməməsinin günahını qarşısına çıxan qara pişiyin, yaxud «tək səbir»in üstünə atmaq olmaz. Hər hansı bir iş baş tutmayanda bunun əsl səbəbini araşdırmaq və o səbəbi aradan qaldırmaq lazımdır.

Sual və tapşırıqlar

1. Lüğətdən «mövhumat» sözünün sinonimi olan sözü tapın.

2. Bunlardan biri mövhumat deyil.

a) «tək səbir»ə inanmaq
b) dördyarpaq yonca görmək
c) qara pişik görəndə yolunu dəyişmək

3. «Mən nələri mövhumat hesab edirəm?» adlı esse tərtib edin.

C.Məmmədquluzadə. «Usta Zeynal» hekayəsi

DƏRS 2

Mövhumat və cəmiyyət. Mövhumatçılıq cəmiyyətin geri qalmasına səbəb olur.

Keçmişdə mövhumatçı insanlar qızların təhsil almasına qarşı çıxırdılar. Onlar düşünürdülər ki, qızların təhsil alması islam dininə ziddir. Azərbaycanda qızların təhsil alması üçün dünyəvi məktəb yox idi. Açıqfikirli insanlar qızların təhsil alması uğrunda mübarizə aparırdılar. Həmin dövrdə yaşamış xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev millətin savadlanmasında qadının təhsilli olmasını vacib sayırdı. Buna görə də o, Bakıda qızlar üçün məktəb açmağı qərara aldı. Hacı Zeynalabdin Tağıyevin bu xoş niyyəti mövhumatçı insanlar arasında böyük narahatlıq yaratdı. Onlar Tağıyevə hədə-qorxu gəldilər, hətta onu öldürmək istədilər. Hacı Zeynalabdin onları bunun belə olmadığına inandırmaq üçün böyük islam ölkələrinə nümayəndələr göndərdi. Nümayəndələr həmin ölkələrin nüfuzlu din xadimlərindən imzalı, möhürlü sənəd gətirdilər ki, Quranda qızların təhsil almasına heç bir qadağa yoxdur.

Qızlar məktəbində riyaziyyat dərsi

Beləliklə, Hacı Zeynalabdin Tağıyev qızlar üçün məktəb açdı, həmin məktəbdə qızlar müxtəlif elmlərə yiyələndilər.

İndi ölkəmizdə qadınların təhsilinə xüsusi diqqət yetirilir, çünki cəmiyyətin inkişafı qadınların savadlı olmasından çox asılıdır.

Mövhumatçı olmağın insanlara yalnız zərəri var. Ona görə də mövhumatçılığa qarşı mübarizə aparmaq lazımdır.

Sual və tapşırıqlar

1. Cümləni tamamlayıb dəftərinizə köçürün.

Mövhumat ..... səbəb olur.

2. Mövhumatçılar Hacı Zeynalabdin Tağıyevi nə üçün öldürmək istəmişdilər?

a) çoxlu pulu olduğuna görə
b) xeyriyyəçiliklə məşğul olduğuna görə
c) qızların təhsil almasının tərəfdarı olduğuna görə

3. Mövhumatı həm də gerilik adlandırırlar. Sizcə, nə üçün? Fikrinizi nümunələrlə əsaslandırın.

C.Məmmədquluzadə. «Dəllək» hekayəsi

SAĞLAM VƏ TƏHLÜKƏSİZ HƏYAT



15. ONURĞA SÜTUNU

Səhər oturub qəlyanaltı edirsiniz. Sonra məktəbə yollanırsınız. Məktəbdə dərs başlayır və siz hər bir dərsdə 45 dəqiqə parta arxasında əyləşməli olursunuz. Dərsdən sonra yenə evə yollanırsınız. Nahar edir, oturub dərslərinizi hazırlayır, kompüterin qarşısında müxtəlif işlər görür, oyunlar oynayırsınız. Siz oturanda, gəzəndə, işləyəndə qamətinizi necə saxladığınıza diqqət etməlisiniz, çünki qamətinizin vəziyyəti sağlamlığınıza təsir edir.

Qamətinizin sağlamlığınızla necə əlaqəsi var?

DƏRS 1

skelet, onurğa sütunu, yuxarı ətraflar, aşağı ətraflar, sümüklər, qabırğalar



İnsanın skeleti

İnsanın skeleti. Skelet orqanizm üçün dayaq rolunu oynayır. İnsanın skeleti kəllə, ətraflar və gövdə hissələrindən ibarətdir.

Kəllə başın skeletidir. Kəllənin üz və beyin hissələri vardır. İnsanın beyni, qulağı, gözü və bir sıra başqa mühüm orqanları kəllənin skeletində yerləşir.

Gövdənin skeleti onurğa sütunu, qabırğalar və döş sümüyündən ibarətdir.

Ətrafların skeletinə yuxarı və aşağı ətrafların sümükləri daxildir. Yuxarı ətraflara qol və əl sümükləri, aşağı ətraflara qıç və ayaq sümükləri aiddir.

Qol və qıç sümükləri gövdəyə hərəkətli şəkildə birləşmişdir. Bunun sayəsində insan yeriyir, əl-qolunu işlədir və başqa hərəkətlər edir.

«Sağlamlıq oxu». Gövdə skeletinin əsasını onurğa sütunu təşkil edir. Kəllənin skeleti onun üzərində dayanır. Onurğa sütununun bütün orqanlarla əlaqəsi var. Həkimlər onu «sağlamlıq oxu» adlandırırlar, çünki onurğa sütununda problem olarsa, ürəkdə, qaraciyərdə, bağırsaqlarda və digər orqanlarda xəstəliklər yaranır.

Onurğa sütununun zədələnməsi qamətimizə də təsir göstərir. İnsanın qaməti düzgün olanda orqan-

lar yerində rahat yerləşir və sıxılmır. Məsələn, hamımız bilirik ki, insan havasız, yəni oksigensiz yaşaya bilməz. Onurğa sütununun əyri olması orqanizmin oksigenlə təmin olunmasına mənfi təsir edir, çünki nəfəsalma zamanı döş qəfəsi tam açıla bilmir. Bu, onurğa sütunu ilə bağlı çoxsaylı problemlərdən yalnız biridir.



Onurğa sütununu zədələnmələrdən qorumaq lazımdır. Xüsusilə kiçik yaşlarda onurğa sütununun düzgün inkişafına nəzarət edilməlidir.

Sual və tapşırıqlar

1. İnsanın skeletinə aşağıdakılardan hansı aiddir?

a) Bədəni soyuqdan qoruyur.
b) Bədəni istidən qoruyur.
c) Daxili orqanları mühafizə edir.

2. Cümləni tamamlayıb dəftərinizə köçürün.

İnsanın skeleti ..... ibarətdir.

3. Cədvəli dəftərinizdə çəkib işləyin.

Skeletin hissələri	İbarətdir
kəllə	
gövdə	
ətraflar	

4. Onurğa sütunu insanın nəfəs almasında necə rol oynayır? Fikrinizi şərh edin və əyani olaraq göstərin.

5. Onurğa sütununun əyilməsinin hansı nəticələri ola bilər? Bu nəticələri sadalayın.

DƏRS 2

Düzgün qamətə sahib olmaq üçün nə etməli? Stulda, masa arxasında əyləşərkən bədəni və başı düz tutmaq lazımdır. Stulun oturacağı dizlərin səviyyəsində olmalıdır.

Yeriyərkən də qaməti düzgün saxlamaq lazımdır. Başı çox arxaya, yaxud qabağa əyib addımlayanda onurğa sütunu əyilir. Belə yeriş vərdiş halına keçərsə, bu, onurğa sütununun qüsurlu olması ilə nəticələnər.

İnsan ayaq üstündə çox dayandıqda belində, çiyinlərində, başının arxasında gərginlik yaranır. Bunların qarşısını almaq üçün əlləri yuxarı qaldırmaq, arxaya əyilmək və dərindən nəfəs almaq lazımdır. Ayaq üstdə yerinə yetirilməli iş olduqda və ya uzun müddət növbədə dayanmalı olduqda hər 10 dəqiqədən bir bədənin vəziyyətini dəyişmək lazımdır. Mütləq ayaqlarınızın vəziyyətini dəyişin: yerinizdə addımlayın, pəncə üzərində qalxıb dabanınızı qaldırın.



Yatarkən hündür yastıqlardan istifadə etmək onurğa sütununun əyilməsinə səbəb olur.

Ağır yükü bərabər bölərək iki əldə daşımaq məsləhətdir. Ağır bir şey qaldırdıqda dizləri əymək lazımdır. Uzun məsafələrə yükü bel çantasında daşımaq məsləhətdir.

Düzgün olanları seçin. Düzgün hesab etmədiklərinizi izah edin.

1

2

3

4



5

6

7

8

9



10

11

16. İNSANIN DAXİLİ ORQANLARI



Ülkər maraqlı bir nağıl oxumuşdu. Nağılın qəhrəmanları insanın orqanları: Ürək, Böyrəklər, Qaraciyər və başqaları idi. Onlar öz aralarında mübahisə edirdilər ki, orqanizmdə hansı daha mühüm işlər görür. Hər bir orqan işindən danışıb özünü tərifləyirdi.

Ülkər onların mübahisəsindən anladı ki, orqanizm üçün bütün orqanlar vacibdir.

Bəs daxili orqanlarımız hansı işləri görür?



İnsanın daxili orqanları

İnsan orqanizmi müxtəlif orqanlardan ibarətdir. Bu orqanların bir qismi bədən boşluğunda yerləşir. Bunlara daxili orqanlar deyilir. İnsanın sağlamlığı daxili orqanlarının sağlamlığından asılıdır.

Skelet insanın daxili orqanlarını kənar təsirlərdən mühafizə edir. Bədəndəki yerindən asılı olaraq döş və qarın boşluğu orqanları vardır. Döş boşluğunda ürək və ağciyərlər, qarın boşluğunda qaraciyər, böyrəklər, mədə, bağırsaqlar və digər daxili orqanlar yerləşir. İnsanın hər bir orqanında qan damarları və sinirlər vardır.

Ürək – yığılıb-açılan orqandır. Ürəyin fəaliyyəti nəticəsində qan bədəndə dövran edir. Ürək yığılanda qanı damarlara vurur. Damarlar isə qanı bədənin hər yerinə daşıyır.



Ağciyərlər – tənəffüs orqanıdır. Bədəndə hərəkət edən qan ağciyərlərdən keçir. Nəfəs alıb-verdikcə zərərli qazlar ağciyərlər vasitəsilə orqanizmdən xaric olunur və qanın tərkibi oksigenlə zənginləşir.

Qaraciyər – qoruyucu, nəzarətedici orqandır. Orqanizmi qidaların zərərli təsirlərindən mühafizə edir. Qanda şəkərin miqdarını tənzimləyir, orqanizmi zəhərli maddələrdən və infeksiyalardan qoruyur. Qaraciyərin fəaliyyəti pozulanda orqanizm xəstələnir.





Böyrəklər – orqanizmdə süzgəc rolunu oynayır. Bədəndə hərəkət edən qan böyrəklərdən keçərkən süzülür. Qanın tərkibində olan zərərli maddələr və artıq su orqanizmdən çıxarılır.

Mədə və bağırsaqlar – həzm orqanlarıdır. Qida ağızda çeynənib udulur, yemək borusu vasitəsilə mədəyə ötürülür, mədədə həzm prosesindən keçir. Sonra həzm prosesi bağırsaqlarda davam edir. Qidanın tərkibində olan maddələr bağırsaqdan qana sorulur. Qan isə bu maddələri bütün bədənə daşıyır.





Qan-damar sistemi



Həzm sistemi

Sual və tapşırıqlar

1. İnsanın əsas daxili orqanları hansılardır? Onları sadalayın.

2. Bunlardan biri mədənin fəaliyyətinə aiddir.

a) Qida mədədə həzm olunur.
b) Qida mədədən qana sorulur.
c) Qida mədədə zəhərli maddələrdən təmizlənir.

3. Aşağıdakılardan biri düzgün deyil.

a) Qaraciyər orqanizmi qidaların zərərli təsirlərindən mühafizə edir.
b) Qan böyrəklərdən keçərkən süzülür və zərərli maddələrdən təmizlənir.
c) Böyrəklər orqanizmi oksigenlə təmin edir.

4. Uyğunluğu müəyyən edin.

böyrəklər
qaraciyər
Döş boşluğunda yerləşir.
ürək
mədə
Qarın boşluğunda yerləşir.
ağciyərlər
bağırsaqlar

5. Cümlələri tamamlayıb dəftərinizə köçürün.

1) Orqanizmdə hərəkət edən qan ağciyərlər və böyrəklərdən keçərək ..... .
2) Qida bağırsaqlarda ..... .

17. ORQANİZMİ NECƏ QORUMALI?

Hər gün səhər gimnastikası etmək, bədəni yaş dəsmalla silmək, yatmazdan öncə təmiz havada olmaq insanın orqanizmini xəstəliklərə qarşı dözümlü edir. Bu, insanın əhvali-ruhiyyəsinə müsbət təsir göstərir.

Orqanizmi virus və bakteriyalardan da qorumaq lazımdır. Bunun üçün gigiyena qaydalarına əməl etmək vacibdir. Sağlamlığımızı qorumaq üçün diqqət etməli olduğumuz başqa amillər də var.

Bu amillər hansılardır?

DƏRS 1

Su. Qidalanma mədəniyyəti. İstirahət. İnsan bədəninin çox hissəsi sudan ibarətdir. İnsan sutka ərzində xeyli su itirir. Bu itkinin yerini doldurmaq lazımdır, əks halda orqanizmdə müxtəlif xəstəliklər baş verər. Təbii ki, çox soyuq su içmək olmaz. Tərli halda soyuq su içmək insanı xəstələndirir.

Qidalanmanın da sağlamlıq üçün böyük əhəmiyyəti var. Hər gün nizamlı olaraq üç dəfə yemək lazımdır, ancaq çox yemək olmaz. Çoxlu qida qəbul etdikdə həzm orqanları yüklənir. Belə hallar tez-tez təkrar olunduqda orqanizmdə müxtəlif xəstəliklər yaranır.

Bəzi qidalardan mümkün qədər az istifadə etmək lazımdır. Məsələn, fastfud adlandırdığımız ayaqüstü yeməklər, qazlı, şirin sular çox istifadə edildikdə insanın sağlamlığına ciddi ziyan vurur.



Qida normal şəraitdə, tələsmədən, süfrə arxasında qəbul edilməlidir.

Yorulanda mütləq dincəlmək lazımdır. Yorğun insan əsəbi olur, hər xırda şeyə görə hirslənir. Əsəbiləşmək də sağlamlığa ziyan vurur.

Sual və tapşırıqlar

1. Cümləni tamamlayıb dəftərinizə köçürün.

Su içməyin orqanizm üçün böyük əhəmiyyəti var, çünki ..... .

2. Aşağıdakılardan hansı gərginliklə bağlı deyil?

a) həyəcan
b) stres
c) rahatlıq

3. Xüsusiyyətlərin nəyə aid olduğunu tapın.

yeməkdir; tez hazırlanır; çox zaman ayaqüstü yeyilir; gənclər daha çox istifadə edir; sağlamlığa ziyan vurur; əldə etmək asandır

4. Sizcə, orqanizmin sağlamlığını qorumaq üçün daha nələrə diqqət etmək lazımdır? Bu haqda mətn tərtib edin.

5. Cədvəli dəftərinizdə çəkib işləyin.

Mən bədənimi möhkəmləndirmək üçün nə edirəm?		
Səhər	Günorta	Axşam

DƏRS 2



Mobil telefondan istifadə. Mobil telefonla çox danışmaq, ondan oyuncaq kimi istifadə etmək yaxşı deyil. Mobil telefonlar böyüklərə nisbətən uşaqlara daha çox ziyan vura bilər, çünki uşaqların kəllə sümüyü nazikdir, beyni hələ inkişafdadır. Hazırda dünyanın bir çox ölkələrində 12 yaşa qədər uşaqların mobil telefondan istifadə etməsinə qadağa qoyulub. Mobil telefonla çox məşğul olmağın hamı üçün zərərli tərəfləri vardır, lakin istifadə qaydalarına əməl ediləndə mobil telefonlar insanların köməkçisi olur.

Mobil telefondan istifadə zamanı şüalanma

Mobil telefonlardan istifadə edərkən aşağıdakı qaydalara əməl edilməlidir:

– Mobil telefonla mümkün qədər az danışmaq lazımdır.
– Yatarkən mobil telefonu yastığın altına qoymaq olmaz.
– Daxili orqanları şüalanmadan qorumaq üçün mobil telefonu paltarın cibinə qoymaq olmaz. Onu çantada daşımaq daha təhlükəsizdir.
– Elektrik şəbəkəsinə qoşulu olanda telefondan istifadə etmək düzgün deyil.
– Evdə mobil telefonu söndürmək və ev telefonundan istifadə etmək daha yaxşı olar.

Kompüterdən istifadə. Elə insanlar var ki, kompüterin qarşısında saatlarla vaxt keçirirlər. Bəziləri hətta qidanı da monitora baxa-baxa qəbul edirlər. Bu cür hallar orqanizmin zəifləməsinə və həzm sisteminin pozulmasına gətirib çıxarır. Kompüter qarşısında uzun müddət oturmaq gözlərə də təsir edir. Gözdə qızarma, qaşınma, yaşarma, ağrı kimi problemlər yaranır. Bunlar kompüterdən düzgün istifadə etməməyin çoxsaylı zərərli təsirlərindən yalnız bir neçəsidir.

Həyatımızı kompütersiz təsəvvür etmək mümkün deyil. Demək olar ki, bütün sahələrdə kompüterə ehtiyac var. Kompüterdən düzgün istifadə etməklə onun ziyanlı təsirlərinin qarşısını almaq olar.

Monitor qarşısında uzun müddət hərəkətsiz dayanmaq olmaz.

Gözləri kompüterin mənfi təsirindən qorumaq üçün monitorun ekranı çox parlaq və çox tünd olmamalıdır.

Kompüter olan otağın havasını tez-tez dəyişmək lazımdır.

Kompüteri yataq otağına qoymaq düzgün deyil.

Kompüterdən həddən çox istifadə edən insanlarda kompüter asılılığı yaranır, vaxt keçdikcə onlar tənhalaşıb özlərinə qapanırlar.

Sağlamlığının qayğısına qalan hər kəs bu tövsiyələrə əməl etməlidir.

Sual və tapşırıqlar

1. Mobil telefon uşaqların orqanizmi üçün nəyə görə təhlükəli hesab olunur?

a) Mobil telefon uşaqların təhsildən yayınmasına səbəb olur.
b) Uşaqlara mobil telefon almaq ailə büdcəsinə ziyan vurur.
c) Uşaqların kəllə sümüyü böyüklərə nisbətən nazikdir.

2. «Telefonla uzun müddət danışmağın ziyanları» adlı siyahı tərtib edin.

3. Telefonu harada daşımaq daha təhlükəsizdir?

a) cibdə
b) əldə
c) çantada

4. «Mən sağlamlığımı qorumaq üçün mobil telefon və kompüterdən necə istifadə edirəm?» adlı cədvəli işləyin və təqdim edin.

Mobil telefon	Kompüter

18. İLK TİBBİ YARDIM

Uşaqlar qaçmağı, atılıb-düşməyi, hərəkətli oyunları çox sevirlər. Belə əyləncələr zamanı onlar yüngül zədələr ala bilərlər. Evdə çay süzərkən, çörək, meyvə doğrayarkən ehtiyatsız davranmaq müxtəlif zədələr almaqla nəticələnir. Zədələr cürbəcür olur: kəsik, sıyrıq, yanıq və s. Uşaqlarla oyun oynayarkən bacı-qardaşlarınız, yoldaşlarınız, özünüz bu cür zədələr ala bilərsiniz və yaxınlıqda böyüklərdən heç kim olmaya bilər.

Belə vəziyyətdə siz necə hərəkət etməlisiniz?

DƏRS 1

Zədə alarkən vəziyyətdən müstəqil çıxmağı bacarmalısınız. Bunu etmək üçün isə mütləq ilk tibbi yardım qaydalarını bilməlisiniz.

Kəsiklər və sıyrıqlar. Kəsik və sıyrıqlar zamanı yaranı axar suda yumaq, onun üstünə yapışmış qırıntıları pambıq, yaxud salfetlə təmizləmək lazımdır. Yara dərin deyilsə, ona yod məhlulu, ya da spirt vurulmalıdır. Bundan sonra onun üstü yara bandı ilə bağlanmalıdır. Hətta ən kiçik yara da insanın həyatı üçün təhlükə mənbəyi ola bilər. Yaraya toxunan hər şey steril, yəni mikrobsuz olmalıdır, əks halda cürbəcür mikroblar yara vasitəsilə orqanizmə daxil olur.

Bəzən yüngül zədələrdə də yaradan qan axır. Bu zaman qorxmaq lazım deyil. Sadəcə, binti, yaxud pambığı yaranın üstünə qoyub sıxmaq və bir neçə dəqiqə saxlamaq qanaxmanı dayandırır.

Sarğı. Sarğı yaranı mikroblardan və kənar təsirlərdən qoruyur, qanaxmanı dayandırır. Sarğı qoymaq üçün tənzifdən* və pambıqdan istifadə edilir.

* *Tənzif* – seyrək toxunmuş nazik pambıq parça

Sarğı necə qoyulur?

Yaranın üzərinə əvvəlcə steril tənzif, sonra isə pambıq qoyulur. Bint sağ əldə saxlanılır, sarğı isə sol əllə tutulur, sonra bint soldan sağa doğru sarınır.

Əvvəlki iki sarğı ikiqat, yəni üst-üstə qoyulur, sonrakı sarğılar biri digərinin yarısını tutmaqla davam etdirilir. Sarğının son dolağını sarıyandan sonra bintin ucunu ortadan iki yerə bölərək düyünləyirlər. Düyün yaranın üstünə düşməməlidir.

Ələ sarğı qoyarkən barmaqların uclarını sarğının içinə salmaq lazım deyil. Sarğı qanı dayandırmaq üçün qoyulmursa, binti bərk çəkmək olmaz. Çox boş sarımaq da sarğının öz-özünə açılmasına səbəb ola bilər.

Sual və tapşırıqlar

1. Yaraya yara bandı qoyulana qədər görülməli olan işləri ardıcıllıqla sıralayın.

1) yaraya yod məhlulu, ya da spirt vurmaq
2) yaraya yapışmış qırıntıları pambıq, yaxud salfetlə təmizləmək
3) yaranı axar suda yumaq

2. Azərbaycan dilinin izahlı lüğətindən istifadə edərək «steril» sözünün mənasını tapıb yazın.

3. Cümləni tamamlayıb dəftərinizə köçürün.

Yaraya qoyulan sarğı steril olmalıdır, çünki..... .

4. Sarğı qoymaq üçün zəruri olan vasitələri seçib söyləyin.

spirt, yara bandı, pambıq, əlcək, bint, vazelin

5. Sarğı hansı məqsədlə qoyulur? Fikrinizi şərh edin.

DƏRS 2

yanıqlar, mikrob, infeksiya, burxulma, istivurma, günvurma

Yanıqlar. Bəzən müxtəlif səbəblərdən dəridə yanıqlar əmələ gəlir, dəri qızarıb şişir və göynəyir. Məsələn, yayda çimərlikdə və ya açıq havada çox qalanda dərinizdə Günəş yanıqları əmələ gələ bilər, yaxud siz çay süzərkən əlinizi yandıra bilərsiniz.

Yanıqlar dərəcəsinə görə müxtəlif olur: yüngül, orta, ağır və ən ağır.

Yanıq zədəsi aldıqda dərhal yanıq yerini soyuq suyun altına tutub 15–20 dəqiqə saxlamaq lazımdır. Bu, göynəməni sakitləşdirir. Yüngül yanıqlarda yanıq yerinə xüsusi məlhəm çəkirlər ki, dəri quruyub daha da bərk göynəməsin. Yanıqdan əmələ gələn suluqlara toxunmaq olmaz. Onları yalnız həkim kəsməlidir, çünki suluqlar kəsiləndən sonra dərinin açıq qalmış yerində mikroblar infeksiya yarada bilər.



Ayaq burxulması. Bəzən ehtiyatsız hərəkət etdikdə ayaq burxulur. Bu zaman sümükləri birləşdirən bağlar və əzələlər dartılıb gərilir, ayaq şişir, şiddətli ağrılar baş verir. Belə hallarda ilk yardım olaraq ağrıyan yerə buz qoymaq şişkinliyi və ağrını azaldır. Əgər əlinizin altında buz yoxdursa, dəsmalı soyuq su ilə isladıb zədələnmiş yerə qoymaq və həkimə müraciət etmək lazımdır.



İstivurma və günvurma. Uzun müddət isti yerdə, məsələn, hamamda qalanda istivurma, Günəş şüalarının altında çox qaldıqda isə günvurma baş verir. Bu zaman yüksək temperatur orqanizmə təsir edib onun fəaliyyətini pozur. İnsanda başağrısı, başgicəllənmə, ürəkbulanma və qusma olur. Belə hallarda xəstəni sərin yerə aparmaq, paltarının yaxasını açmaq, su içirtmək, başına və sinəsinə yaş dəsmal qoymaq lazımdır.

Yardım etmək üçün, ilk növbədə, özünüzü itirməməli, təmkinlə hərəkət etməlisiniz. Əgər qorxub özünüzü itirsəniz, ilk tibbi yardım qaydalarını öyrənsəniz də, heç kimə kömək edə bilməyəcəksiniz.

Sual və tapşırıqlar

1. Dəridə yanıqlar yarada bilən amilləri və yanıq zədələri almağın səbəblərini göstərin.

2. Cədvəli dəftərinizdə çəkib şəkillərə əsasən tamamlayın.

Yanıqlar	Xüsusiyyətləri
Yüngül	
Orta	
Ağır	
Ən ağır	

3. Cümləni tamamlayıb dəftərinizə köçürün.

Yanıq zamanı əmələ gəlmiş suluqları kəsmək olmaz, çünki..... .

4. Ayaq burxulanda ilk yardım nədən ibarət olur?

a) Ayağa dərhal sarğı qoyulur.
b) Ağrıyan yerə yod vurulur.
c) Ayağa buz, yaxud soyuq suda isladılmış dəsmal qoyulur.

5. İstivurma və günvurmanın fərqini söyləyin.

6. İsti vurmuş insana necə yardım göstərmək olar?

19. MƏİŞƏT QƏZALARI

Fuad küçədə uğultulu, zil səs eşidib tez pəncərəyə tərəf qaçdı. Həyətdə üstündə «FHN» yazılmış böyük qırmızı maşın dayanmışdı. Qonşular yığışıb həyəcanla nə barədəsə danışırdılar. Fuadın anası da onların arasında idi.

Maşından düşən sarı geyimli yanğınsöndürənlər cəld işə başladılar. Onlar yanğını söndürüb gedəndən sonra Fuadın anası evə gəldi və qonşu binada yanğın baş verdiyini söylədi. Məlum oldu ki, qadın paltarı ütüləyəndən sonra ütünü elektrik xəttindən ayırmağı unudub. Həddindən artıq qızan ütü yanğına səbəb olub.

Yanğınsöndürənlər vaxtında gəlməsəydilər, nə baş verə bilərdi?

Elektrik cihazları ilə davranış qaydaları. Həyatımızı elektriksiz təsəvvür etmək mümkün deyil. Elektrik avadanlıqları məişətimizi asanlaşdırır, lakin ehtiyatsız davrandıqda bu avadanlıqlar həyat üçün çox təhlükəli olur. Məsələn, aşağıdakı hallar elektrik vurması ilə nəticələnə bilər:

– batareya ilə işləsə də, müxtəlif elektrik cihazlarından vanna otağında istifadə etmək;
– yaş əllə elektrik naqilinə və elektrik cihazlarına toxunmaq;
– naqili zədələnmiş elektrik cihazlarından istifadə etmək.

Elektrik cihazlarında naqilin zədələnməsi yanğına da səbəb ola bilər. Elektrik çaydanının və elektriklə işləyən digər qızdırıcıların şəbəkəyə qoşulu halda nəzarətsiz qoyulması yanğın törədə bilər. İşləyən televizoru da nəzarətsiz qoymaq olmaz.



Yolda qırılıb düşmüş naqilə rast gəlsəniz, qətiyyən ona toxunmayın. Həmin naqil qırılmış elektrik xətti ola bilər. Belə naqilə toxunmaq həyat üçün təhlükəlidir.

Qaz cihazları ilə davranış qaydaları. Qaz cihazları ilə ehtiyatlı davranmaq lazımdır. Uşaqlar bu cihazlardan böyüklərin nəzarəti altında istifadə etməlidirlər.

Bəzən islanmış corab, əlcək və digər geyimləri qurutmaq üçün qaz cihazlarının üstündən asırlar. Bu, çox təhlükəlidir.

Əgər evdə böyüklər sizə çaydanı doldurub qaynatmağı tapşırsalar, heç vaxt onu ağzınadək doldurmayın. Əks halda su qaynayanda daşıb odu söndürər. Bu zaman qaz açıq olduğu üçün sızıb mənzilə dolar və partlayış baş verər. Qaz sızması həm də zəhərlənməyə səbəb ola bilər.

Tək olduğunuz zaman mənzilə daxil olarkən qaz iyi gəlib-gəlmədiyinə diqqət edin. Qaz iyi hiss etdikdə elektrik cihazlarını şəbəkəyə qoşmayın, qoşulu cihazları şəbəkədən ayırmayın, işığı yandırıb-söndürməyin. Dərhal pəncərələri açın və telefonla 104 nömrəsini yığıb qəza xidmətinə müraciət edin.

Sual və tapşırıqlar

1. **«Qaz cihazlarından istifadə qaydaları» adlı mətn tərtib edin.**
2. **Elektrik cihazlarından istifadə qaydasının pozulması ilə bağlı cədvəli dəftərinizdə çəkib işləyin.**

Qayda pozuntusu	Bu zaman nə baş verir?
Metal əşyaları elektrik cihazlarının içərisinə salmaq	
	Həddindən artıq qızma nəticəsində cihazın hər hansı detalı sıradan çıxır və xarab olan cihaz təhlükəli olur.
Naqili zədələnmiş elektrik cihazlarından istifadə etmək	

3. **Mətndəki şəkildə təsvir olunan hadisəni izah və şərh edin.**
4. **Qazla bağlı nasazlıq baş verərsə, 104 nömrəsindən başqa, daha hansı nömrəyə zəng vurmaq olar?**

20. YOL HƏRƏKƏTİ QAYDALARI

Sürücülər nəqliyyat vasitəsini idarə etmək üçün imtahan verirlər. İmtahandan keçə bilməyənlərə sürücülük vəsiqəsi verilmir. Piyadaları və sərnişinləri isə imtahan etmirlər. Buna baxmayaraq, yol hərəkəti qaydalarını öyrənmək və onlara əməl etmək piyadaların və sərnişinlərin vəzifəsidir.

Bəs piyadalar və sərnişinlər nələrə əməl etməlidirlər?

Yol hərəkəti qaydalarının əhəmiyyəti. Yol hərəkəti qaydaları insanların təhlükəsizliyi üçündür. Bu qaydalar olmasa, qəzaların sayı artar, yollarda tıxaclar yaranar. Bütün bunların olmaması üçün sürücü, piyada və sərnişinlərin hər biri öz üzərinə düşən vəzifəni bilməlidir. Onların öz vəzifələrini yaxşı yerinə yetirmələri mədəni həyat tərzinin göstəricilərindən biridir.



Piyadalar. Piyadanın əməl etməli olduğu qaydalar aşağıdakılardır:

– səki ilə hərəkət etməlidir;
– küçələri piyada keçidləri ilə keçməlidir;
– avtobusu yalnız dayanacaqlarda gözləməlidir;
– avtobusa minmək üçün yolun hərəkət hissəsinə yalnız avtobus dayandıqdan sonra çıxmalıdır;
– nəqliyyat vasitəsindən düşdükdən sonra ləngimədən səkiyə çıxmalıdır;
– nəqliyyatdan düşəndən sonra yolu keçmək lazımdırsa, dayanmış nəqliyyat vasitəsinin yalnız arxasından keçməlidir;
– işıqforun işarəsinə əməl etməlidir;

– yolun hərəkət hissəsinə çıxmazdan əvvəl yaxınlaşan nəqliyyat vasitəsinin olmadığını yəqin etməlidir.

Sərnişinlər. Sərnişinin əməl etməli olduğu qaydalar aşağıdakılardır:

– hərəkət vaxtı sürücünün diqqətini yayındırmaq olmaz;

– hərəkətdə olan avtobusun içərisində gəzmək olmaz, əyləşmək, yaxud bir yerdə dayanıb tutacaqdan yapışmaq lazımdır.

Bu qaydalara əməl etdikdə insanlar öz həyatlarını qorumaqla yanaşı, həm də yol-nəqliyyat qəzalarının baş verməsinin qarşısını ala bilərlər.

Sual və tapşırıqlar

1. Cümləni tamamlayıb dəftərinizə köçürün.

Yol hərəkəti qaydalarına əməl etmək mədəni həyat tərzinin göstəricilərindən biri hesab edilir, çünki..... .

2. Piyadanın vəzifələri nədən ibarətdir?

3. Sərnişinlər nəqliyyatda necə davranmalıdırlar?

4. Yol hərəkəti qaydalarına əməl etməməyin həm piyadalar üçün, həm də sərnişinlər üçün nəticələrini yazın.

5. Hansı şəkildə uşaq keçid qaydalarını pozmur? Fikirlərinizi izah edin.





6. **Qaydaları pozan uşaqların hərəkətlərini şərh edin.**

Məktəblilər üçün yol hərəkəti qaydaları. «Məktəb yolu» (YouTube)

21. FÖVQƏLADƏ HAL

Bəzən böyük müəssisələrdə baş verən qəzalar nəticəsində ətraf mühitə və insanlara ciddi ziyan dəyir. Təbiət hadisələri də adi haldan çıxıb dağıntılar yarada bilir. Belə vəziyyətə fövqəladə hal deyilir. Elə «fövqəladə» sözünün mənası da «qeyri-adi» deməkdir.

Müasir dövrdə hansı fövqəladə hallar baş verir?

DƏRS 1

texnogen qəza, təbii fövqəladə hal, radioaktiv maddə, sel, daşqın

Texnogen xarakterli fövqəladə hallar. Müasir dövrdə güclü partlayışlara səbəb olan, zəhərli maddələr yayan silahlar mövcuddur. Bu silahların istifadəsi böyük dağıntılara və insan ölümünə səbəb olur. Ona görə də insanlar müharibələrin təhlükəsini dərk edir və onun qarşısını almağa çalışırlar.

Sülh şəraitində də bəzən partlayışlar, zəhərli maddələrin ətraf mühitə yayılması halları baş verir.

Bu necə olur?

Zəhərli maddələrlə işləyən müəssisələrdə qəza baş verəndə, belə maddələri daşıyan borular, nəqliyyat vasitələri zədələnəndə zəhərli maddələr ətraf mühitə yayılır. Bu zaman kimyəvi zəhərlənmə sahələri yaranır və ətrafda canlı-cansız nə varsa, hamısı zəhərlənir. Kimyəvi maddələr tənəffüs yollarını, dərini və gözü qıcıqlandırır. Orqanizmdə kəskin ağrılar başlayır, boğulma, öskürək, qusma, nəfəs çatışmazlığı, gözlərdə yaşarma əmələ gəlir.

Atom elektrik stansiyası (AES) deyilən xüsusi müəssisələr vardır. Bu müəssisələrdə elektrik enerjisi əldə edilir. AES-lərdə qəza baş verdikdə də fövqəladə hal yaranır. Radioaktiv

maddələr* olduqca geniş sahələrə yayılaraq ətraf mühiti zəhərləyir. Belə qəzalar olan yerdə həyat, demək olar ki, məhv olur. Zəhərlənmiş ərazilərdə ağaclar on illərlə bar vermir, insanlar ağır xəstəliklərə tutulurlar.

Təbii xarakterli fövqəladə hallar. Fövqəladə hallar yalnız kimyəvi və radioaktiv maddələrin dağılması ilə bağlı deyil. Təbii fövqəladə hadisələr də insanlar üçün böyük çətinliklər yarada bilir. Məsələn, şiddətli yağış, dolu, sel, daşqın, zəlzələ, torpaq sürüşməsi və başqa təbii fəlakətlər nəticəsində insanlar həlak olur, yüzlərlə yaşayış evi və digər tikililər dağılır və ya ciddi zədələnir. Belə hallarda dövlət təsərrüfatına və əhaliyə külli miqdarda maddi ziyan dəyir.

Sual və tapşırıqlar

1. **Azərbaycan dilinin izahlı lüğətindən «fövqəladə» sözünün mənasını tapıb yazın.**
2. **Fövqəladə hallar hansı səbəblərdən yarana bilir?**
3. **Mətnin sonundakı iki şəkildə hansı təbii fövqəladə hal təsvir olunmuşdur?**
4. **Atom elektrik stansiyalarında qəza baş verməsinin təhlükəsini şərh edin.**
5. **«Təbii fəlakətlər və onların vurduğu ziyanlar» adlı cədvəl tərtib edin.**

Təbii fəlakət	Vurduğu ziyan

* *Radioaktiv maddə* – şüalanma yaradan maddə

DƏRS 2

Fövqəladə hallarda necə davranmalı? Radioaktiv və zəhərli kimyəvi maddələr xüsusi simvollarla işarə edilir. Bu işarələr qoyulmuş yerlərdə insanlar çox ehtiyatlı olmalıdırlar.

Fövqəladə hal baş verərkən həyəcan siqnalı verilir. Həyəcan siqnalı eşidilərkən dərhal televizoru açmaq lazımdır. Həmin vaxt televizorda və internetdə fövqəladə vəziyyət və həmin vəziyyətdə necə davranma qaydaları barədə Fövqəladə Hallar Nazirliyi orqanının məlumatları verilir. Bu məlumatları diqqətlə dinləmək və onların göstərişlərinə uyğun hərəkət etmək lazımdır.

Atmosferə zəhərli qazların yayılması barədə məlumat verildikdə aşağıdakı qaydalara əməl edilməlidir:

– Örtülü bir yerdə (evinizdə) olmaq lazımdır. Binaların birinci mərtəbələrində və zirzəmilərdə qalmaq olmaz. Çoxmərtəbəli binaların üst mərtəbələri daha təhlükəsiz hesab olunur.

– Kondisioneri söndürmək, qapı, pəncərə və nəfəsliyi bağlamaq lazımdır.

– Tez-tez havaya su səpmək lazımdır.

– Tənəffüs orqanlarının qorunması üçün respiratordan, pambıq-tənzif maskadan, yaxud suda isladılmış dəsmaldan istifadə edilməlidir.

– Yeməkdən əvvəl əllər yaxşı yuyulmalı, ağız çay sodası məhlulu ilə yaxalanmalıdır.

radiasiya təhlükəsi

bioloji təhlükə

zəhərli maddə

Təhlükə bildirən simvollar



Çay sodası, limon turşusu, yaxud üzüm sirkəsi ilə isladılmış dəsmaldan maska kimi istifadə etmək lazımdır.

Belə fövqəladə hadisə baş vermiş ərazidə yaşayan əhalinin xüsusi diqqət etməli olduğu davranışlar vardır, məsələn:

– Açıq yerdə soyunmaq, oturmaq, açıq su hövzələrində çimmək, meşədən giləmeyvə və göbələk yığmaq olmaz.

– Suyu yalnız yoxlanılmış mənbələrdən götürmək lazımdır.

Bioloji silahlarda müxtəlif yoluxucu xəstəliklərin törədicilərindən istifadə edilir. Belə silahlar partladıqda ətrafa xəstəlik törədən mikroblar, parazit qurdlar yayılıb əhalini xəstələndirir.

Fövqəladə halların nəticələrinin aradan qaldırılması. Fövqəladə hallar zamanı dövlət təcili olaraq fəlakət baş vermiş rayonlarda bərpa işlərinə başlayır. Bu işlər üçün lazımi qədər maşın, texnika, yanacaq və digər vəsait ayrılır. Dağılmış və ya ciddi zədə almış avtomobil yollarının, elektrik və rabitə xətlərinin bərpası üçün tədbirlər həyata keçirilir. Dövlət orqanlarının hər biri öz sahəsində bərpa işləri görür. Məsələn, təbii fəlakət zonasında enerji kəsilibsə, yollar dağılıbsa, dəmir yolları ziyan çəkibsə, əlaqədar təşkilatlara tapşırıqlar verilir. Təbii fəlakət nəticəsində dağılmış və ciddi

zədələnmiş evlərin sakinləri evləri bərpa olunanadək yaşayış yerləri ilə təmin edilirlər. Təbii fəlakət zonasında yoluxucu xəstəliklər yayıla bilər. Bunun qarşısını almaq üçün tibbi sanitar işləri yerinə yetirilir.

Sual və tapşırıqlar

1. **Radiasiya və kimyəvi maddələrlə zəhərlənmə halları nə zaman baş verir?**
2. **Radiasiya təhlükəsini bildirən simvollar haralarda qoyulur?**
   a) hər yerdə
   b) cəbhə xəttində
   c) təhlükəli materiallar istifadə olunan yerlərdə
3. **Radiasiya olan ərazilərdə bu simvolun ifadə etdiyi mənaları şərh edin.**



4. **Mətndə göstərilən silahlardan hansını ən təhlükəli hesab edirsiniz? Fikrinizi əsaslandırın.**
5. **Təbii və texnogen qəzaların nəticələri barədə danışın.**
6. **Fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün dövlət hansı tədbirləri görür?**

TƏBİƏT VƏ CƏMİYYƏT

22. YER TƏBİƏTİNİN MÜXTƏLİFLİYİ

Yerin Cənub qütbü Antarktida materikində yerləşir. Burada heç vaxt əriməyən buzlaqlar vardır. Materikin əsas sakinləri pinqvinlərdir.

Şimal qütbü isə Şimal Buzlu okeanında yerləşir. Buradakı adalar ağ ayıların vətənidir. Adalarda ilboyu hava soyuqdur. Burada heç vaxt əriməyən ağappaq «qar səhraları» var.

Bəs temperatur yüksəldikcə təbiətdə hansı dəyişikliklər baş verir?

DƏRS 1

«qar səhraları», tundra, çöl, savanna, səhra

Havanın temperaturu artdıqca təbiət daha rəngarəng olur. Bitki aləmi sıxlaşır və heyvan növlərinin sayı artır.

Yerin quru sahələri bitkilərin az və çox olduğu ərazilərə ayrılır. Ərazilərin müxtəlif adları vardır.

Bitki az olan ərazilər		Bitki çox olan ərazilər	
	tundra		tayqa
	çöl və savannalar		qarışıq və enliyarpaqlı meşələr
	səhralar		rütubətli tropik və ekvatorial meşələr

Tundra. Şimal qütbü ətrafındakı «qar səhraları» bitdikdən sonra ara-sıra torpaq görünməyə başlayır. Torpağı örtən şibyələr gözə dəyir və getdikcə sıxlaşır. Şibyələr bitkilərin yaşaya bilmədiyi şəraitdə yaşayan orqanizmlərdir.

Onlar ağacların, daşların, qayaların üzərində bitir. Şibyələrdə kök, gövdə, yarpaq və çiçək olmur.

Tundrada yay çox qısa və soyuq olur. Yayda qar ərisə də, torpağın donu açılmır.

Bitkilər aləmi zəif olduğuna görə tundrada heyvan növləri də azdır. Burada şimal maralı, şimal tülküsü, ağ kəklik, qütb bayquşu və soyuğa davam gətirən digər canlılar yaşayır.



Şimal qütbündə və tundrada yaşayan heyvanlar

Çöl. Çöl, əsasən, düzənlik və alçaq təpəliklərdən ibarət ərazidir. Burada yay isti və quraq keçir.

Çöldə alçaqboylu otlar bitir. Ağaclara nadir hallarda rast gəlmək olur.

Çöldə, əsasən, sürünənlər, quşlar, gəmiricilər və digər heyvanlar yaşayır.

Çöl heyvanları

Savanna. Afrikada və Avstraliyada çölə çox bənzəyən əraziləri savanna adlandırırlar. Savannada quraqlığadavamlı otlar bitir, lakin orada otlar çox hündür olur. Otların içində qəribə görkəmli baobab ağacları gözə dəyir. Savannada iki mövsüm – yağıntı və quraqlıq mövsümü bir-birini əvəz edir.

Baobab uzunömürlü ağacdır. Bu ağacların yaşı 3–4 min ildən də çoxdur. İllər keçdikcə onların geniş gövdələrində böyük oyuqlar yaranır. Əhali bu oyuqlarda dincəlmək üçün yerlər düzəldir.

Afrika ölkələrindən birində baobab ağacının gövdəsinin içərisində 40 nəfərin rahat yerləşdiyi avtovağzal vardır.

Savannanın heyvanlar aləmi çox rəngarəngdir və bunların çoxu otyeyəndir. Burada zürafə, fil, kərgədan, begemot kimi iri otyeyən və aslan, leopard kimi yırtıcı heyvanlar yaşayır. Çay və göllərin sahilləri timsahların məskənidir. Dünyada ən iri quşun – dəvəquşunun da vətəni savannadır.



Savannada yaşayan heyvanlar

Səhra. Səhra Yer kürəsinin ən quraq ərazisidir. Buna baxmayaraq, səhranın ortasında suyu və yaşıllığı olan sahələr olur. Bunlara **vahə** deyilir.

Səhrada havanın istiliyi gündüz 50 dərəcədən yuxarı qalxa bilər. Belə şəraitə hər canlı tab gətirə bilmir. Ona görə də səhrada bitki və heyvanlar aləmi kasıbdır. Səhra bitkiləri, əsasən, tikanlı və yarpaqsız olur. Bu xüsusiyyət suyun çox buxarlanmasının qarşısını alır və bitkini qurumaqdan qoruyur. Səhrada yaşayan heyvanların çoxu gündüz-

Vahə

lər gizlənir, yaxud yatır. Onlar su və yemək axtarmaq üçün yuvadan gecələr çıxırlar.

İlan

Çanaqlı bağa

Kərtənkələ

Əqrəb

Səhra heyvanları

Sual və tapşırıqlar

1. Qütblərdən uzaqlaşdıqca təbiətin dəyişməsi nə ilə bağlıdır?

a) istiliyin artması ilə
b) bitkilərin çoxalması ilə
c) yağışların çoxalması ilə

2. Soyuq səhra heyvanları isti səhra heyvanlarından hansı xüsusiyyətləri ilə fərqlənir? Müqayisə edin.

3. Çöl və savannanı Venn diaqramında müqayisə edin.

4. Lazım olan sözü seçib cümlədə yerinə qoyun.

Səhralarda qızmar istidə yol gedən yolçular ..... görəndə çox sevinirlər.

a) qum təpələri
b) qumda şütüyən kərtənkələ
c) vahə

«Madaqaskar», «Kumba» cizgi filmləri



Tayqa meşəsi

DƏRS 2

tayqa, qarışıq meşə, həmişəyaşıl, tropik, cəngəllik

Tayqa. Tundradan cənuba doğru soyuğadavamlı iynəyarpaqlı ağacların yaratdığı meşələr yayılmışdır. Bu meşələr tayqa adlanır.

Tayqada istisevən və sürünən heyvan növləri yaşamır. Burada yaşayan heyvanların çoxu xəzlidir. Tayqada sığın, qonur ayı, samur və müxtəlif quşlar, həşəratlar yaşayır.

Tayqada yaşayan heyvanların çoxu qışda yuxuya gedir. Qış yuxusu adi yuxuya bənzəmir. Qış yuxusuna gedən heyvan qidalanmır. Onun bədənində temperatur aşağı düşür, nəfəs alması azalır, ürəyi isə çox zəif döyünür. Havalar istiləşəndə heyvanlar qış yuxusundan oyanıb normal qidalanmağa başlayırlar.

Tayqa meşələrində yaşayan heyvanlar

Bayquş

Sincab

Dovşan

Enliyarpaqlı və qarışıq meşələr. Cənuba doğru hava istiləşir. Tayqada enliyarpaqlı ağaclar görünməyə başlayır. Küknar və şam ağaclarının arasında tək-tək palıd, vələs, fısdıq ağacları gözə dəyir. Həm iynəyarpaqlı, həm də enliyarpaqlı ağaclardan ibarət qarışıq meşə yaranır. Enliyarpaqlı və qarışıq meşələrin sakinləri müxtəlif meşə quşları, qaban, nəcib maral və başqa heyvanlardır.

Tülkü

Qaban

Vaşaq

Nəcib maral

Canavar

Qonur ayı

Enliyarpaqlı və qarışıq meşələrdə yaşayan heyvanlar

Tukan

Tutuquşu

Rütubətli tropik meşə

Rütubətli tropik meşələr. Yer kürəsinin daha isti ərazilərində həmişəyaşıl rütubətli tropik meşələr yayılmışdır. Bu meşələrdə fəsillər dəyişmir. Hava həmişə isti olur və yağıntılı keçir. Bəzi yerlərdə ağaclar o qədər sıx bitir ki, keçilməz cəngəlliklər yaranır. Həmişəyaşıl meşələr yer üzündəki heyvanların yarıdan çoxunun məskənidir. Bu meşələrdə bəbir, nəhəng ilanlar, əlvan lələkli quşlar çoxdur.

Kolibri

Afrika bəbiri

Buqələmun

Anakonda

Ərincək



Rütubətli tropik meşənin heyvanları

Sual və tapşırıqlar

1. «Bu meşələr yer üzündəki heyvanların yarıdan çoxunun məskənidir». Söhbət hansı meşələrdən gedir?

a) tayqa

b) enliyarpaqlı və qarışıq meşələr

c) rütubətli tropik meşələr

2. Rütubətli tropik meşələrdə bitkilərin çox sıx olmasının səbəbini göstərin.

a) çoxlu heyvan növünün bolluğu

b) istiliyin və rütubətin bolluğu

c) bitkilərin həmişəyaşıl olması

3. Enliyarpaqlı və iynəyarpaqlı ağacların fərqini izah edin.

4. 3-cü sinifdə öyrəndiklərinizi yada salın. Aşağıdakılardan hansıları Azərbaycanda vardır?

arktik səhra, enliyarpaqlı meşə, səhra, tayqa meşəsi, cəngəllik, çöl, sığın, ayı, canavar, zürafə, aslan, bəbir, xallı maral, yaşılbaş ördək

5. Azərbaycanın meşələri haqqında məlumat toplayın.

6. Tayqa meşələrini rəsmlə təsvir edin.

«Mauqli», «Marsupilami» cizgi filmləri

23. TƏBİƏTDƏKİ ƏLAQƏLƏR

Təbiətdə gözlə görünməyən əlaqələr var. Bu əlaqələr olmasa, həyat olmaz.

Cansız təbiət ↔ Canlı təbiət

Bitkilər ↔ Heyvanlar

Heyvanlar ↔ Heyvanlar

İnsan ↔ Təbiət

Siz bu sxemi necə şərh edə bilərsiniz?

DƏRS 1

Günəş, su, hava, torpaq, suyun dövranı, canlı və cansız varlıqlar, münbitlik

Canlı və cansız varlıqlar. Təbiətdəki canlı varlıqlar daim dəyişir, qidalanır və çoxalır. Cansız varlıqlar isə uzun illər dəyişməz qalır, qidalanmır və çoxalmır. Buna baxmayaraq, canlı və cansız varlıqlar daim bir-biri ilə əlaqədədir. Yer üzündə həyatın davam etməsi bu əlaqələrdən asılıdır.



Cansız varlıqlar arasında əlaqələr. Cansız varlıqlar arasındakı əlaqələri ən adi təbiət hadisələrində görmək mümkündür. Günəş, su, hava və torpaq cansız varlıqlardır. Temperatur və su arasındakı əlaqə suyun təbiətdə dövranına səbəb olur. Hava və temperatur əlaqələri küləyin yaranmasına səbəb olur. Su, hava və külək isə torpaqların yaranmasında iştirak edir. Havanın temperaturu torpağın «münbit» olmasında vacib şərtdir.



Münbit olmayan torpaq



Münbit torpaq

Canlı və cansız varlıqlar arasında əlaqələr. Günəş, su, hava və torpaq bitkilərin həyatı üçün vacib təbii amillərdir.

İstiliyin həddən az, yaxud çox olması bitkilərin yaşamasını çətinləşdirir. Ona görə də soyuq və isti səhralarda bitki örtüyü olduqca azdır. Bitkilər susuz qalanda quruyur.

Münbit torpaqlarda bitkilərə lazım olan qida maddələri, rütubət və digər vacib amillər mövcuddur. Torpağın münbit olmasında canlı orqanizmlər çox iş görür. Bu orqanizmlər torpağa düşən cürbəcür bitki və heyvan qalıqlarının parçalanıb torpağa qarışmasında iştirak edir və onu münbitləşdirir.

Külək bitkini tozlandırır və toxumlarını ətraf ərazilərə yayıb, çoxalmasına səbəb olur.

Sual və tapşırıqlar

1. Hansı təbiət hadisəsi suyun təbiətdə dövranı ilə bağlıdır?

a) Günəşin çıxması
b) fəsillərin dəyişməsi
c) qar yağması

2. Cümləni tamamlayıb dəftərinizə köçürün.

Torpağın münbit olması üçün ..... lazımdır.

3. Cədvəli dəftərinizdə çəkib işləyin.

Təbii amil	Bitkinin həyatında rolu
Günəş/temperatur	
su/rütubət	
hava/külək	
torpaq/münbitlik	

4. Mikroorqanizmlərin torpağa düşən bitki və heyvan qalıqlarını parçalaması nəyə səbəb olur?

a) torpağın münbitləşməsinə
b) torpağın qurumasına
c) torpağın donmasına

DƏRS 2

Canlılar arasında əlaqələr. Yer üzərindəki həyatı bitkilərsiz təsəvvür etmək olmaz. Bitkilər həm özləri, həm də digər canlılar üçün qida hazırlayır və havanı oksigenlə zənginləşdirir.

Heyvanlar yaşamaq üçün həm bitkilərə, həm də bir-birinə ehtiyac duyurlar. Bitkilər olmasa, otyeyən heyvanlar məhv olar. Otyeyən heyvanlar da olmalıdır ki, ətyeyən heyvanlar yaşaya bilsin. Göründüyü kimi, canlılar arasında qırılmayan daimi əlaqə vardır. Bu, «qida zənciri» adlanır.



«Qida zənciri». Canlılar yaşayır, sonra məhv olub cansız

təbiətə qarışır. Məsələn, payızda yarpaqlar saralıb tökülür, çürüyüb torpağı münbitləşdirir. Yazda hava istiləşəndə torpaqda cürbəcür otlar göyərir. Sonra mövsüm dəyişir və otlar solub torpağa qarışır.

«Qida zənciri»ndə canlıların bir qrupu qida maddələri və oksigen hazırlayır. Bu qrupa daxil olan canlılar **istehsalçıdır**.

Canlıların digər qrupu onların istehsal etdiyi qida maddələrini və oksigeni mənimsəyir. Bu qrupa daxil olan canlılar **istifadəçidir**.

Üçüncü qrup isə məhv olmuş canlıların çürüyüb cansız təbiətə qarışmasında iştirak edir. Bu qrupa daxil olan canlılar **çürüdücüdür.**

Həyat üçün zəruri olan təbii amillərdən biri olmasa, bu zəncir qırılar və həyat mövcud ola bilməz.

Sual və tapşırıqlar

1. **Canlılar arasında hansı əlaqələr vardır? Fikrinizi nümunələrlə izah edin.**
2. **Bu canlılardan hansı qida zəncirində məhv olmuş orqanizmlərin maddələrə parçalanmasında iştirak edir?**
   a) ağaclar
   b) ətyeyən heyvanlar
   c) mikroorqanizmlər
3. **«Qida zənciri»ndə ən böyük rol, sizcə, hansı qrup canlılara aiddir? Fikrinizi əsaslandırın.**
4. **Sxemi izah edin və orada təsvir olunan orqanizmlərin hansı qrupa aid olmasını müəyyən edin.**



Valeri Medvedyev.
«Barankin, adam ol!»

24. EKOLOGİYA

«Ekologiya» yunan sözü olub, «yaşayış yeri» və «elm» sözlərinin birləşməsindən yaranmışdır. Ekologiya təbiətdəki əlaqələri öyrənir. Bu əlaqələr pozulanda ciddi ekoloji problemlər yaranır.

Müasir dövrdə insanları hansı ekoloji problemlər narahat edir?

Müasir dövrün əsas ekoloji problemləri. Cəmiyyət sürətlə inkişaf edir. İnsanların tələbatlarının ödənilməsi üçün istehsal müəssisələrinin sayı durmadan artır. Bu isə ekoloji problemlərin yaranmasına səbəb olur.

Atmosferə atılan zəhərli qazlar havaya qarışıb onu korlayır və hava getdikcə daha çox çirklənir. Havanın çirklənməsi, ilk növbədə, canlılara pis təsir edir.

Fabrik və zavodlardan, yaşayış məskənlərindən çaylara tökülən tullantılar dəniz və okeanları çirkləndirir. Şirin suyun əsas mənbəyi olan çaylar və göllər çirkləndikcə içməli su azalır.

Fasiləsiz olaraq çıxarılan yeraltı təbii sərvətlər zaman keçdikcə tükənir.

Məhsuldar torpaqlar ilbəil azalır. Kimyəvi gübrələrin düzgün istifadə edilməməsi nəticəsində torpaqların münbitliyi itir və səhraya çevrilir. Bütün bunlar bitki örtüyünə və heyvanlar aləminə ciddi ziyan vurur.

Ekoloji problemlər və Yer kürəsi. Okeanlar, dənizlər, böyük çaylar, atmosfer yalnız bir ölkəyə aid deyil. Havanın, suyun çirklənməsi bütün ölkələrin problemidir. Suya düşən zəhərli maddələr bir ölkədə atılsa da, hər tərəfə

yayılır. Çirklənmiş hava da sərhəd tanımadan bir ölkədən başqasına keçir. Ona görə də dünya ölkələri havanın, torpağın, okean sularının, canlılar aləminin mühafizəsi uğrunda birgə mübarizə aparırlar.

Bu problemlərin qarşısını almaq üçün insanlar təbiətə zərər vurmayan maşın və texnologiyalar yaratmalıdırlar. Məsələn, benzinlə işləyən avtomobillərin əvəzinə elektrik enerjisi ilə işləyən avtomobillərin sayını çoxaltmaq olar.

İnsanlar Yer kürəsindəki ehtiyatlardan qənaətlə istifadə etməlidirlər. Köhnəlmiş məhsulları (texnika, geyim, əşya) təkrar emal edərək onlardan yenilərini hazırlamalıdırlar.

Bu gün ekologiya elminin qarşısında Yer kürəsini xilas etmək kimi çətin vəzifə durur.

Sual və tapşırıqlar

1. Havanın çirklənməsinin səbəbini göstərin.

a) təbiət hadisələri
b) insanların təsərrüfat fəaliyyəti
c) cansız təbiət varlıqları arasındakı əlaqələr

2. Sxemi dəftərinizdə çəkib havanın çirklənməsinin nəticələr zəncirini davam etdirin.

hava çirklənir → *havada oksigen azalır* → ( ) → ( )

3. Uyğunluğu müəyyən edin.

Ekoloji problem		Səbəbi
1) dənizin çirklənməsi		a) kimyəvi gübrələrdən çox istifadə edilməsi
2) zəhərli yağışlar yağması		b) çayların qarşısının kəsilməsi
3) torpağın səhralaşması		c) neftin çıxarılması və daşınması
4) gölün quruması		d) havaya zəhərli maddələr atılması

4. Aşağıdakılardan biri ekoloji problem deyil.

a) çayın quruması
b) yağışın yağması
c) neftin tükənməsi

5. Bir ölkədə olan aşağıdakı problemlərdən hansıları Yer kürəsi üçün təhlükə yaradır? Səbəb-nəticə zəncirini dəftərinizdə çəkib işləyin.

havanın çirklənməsi

içməli suyun azlığı

dəniz sularının çirklənməsi

faydalı qazıntıların tükənməsi



DƏRS 2

Məhəllənizin ekoloji vəziyyəti. Ətraf mühitin ekoloji vəziyyəti, ilk növbədə, canlıların orqanizminə təsir edir. Ona görə də hər kəs yaşadığı ərazidə ətraf mühitin vəziyyəti ilə maraqlanmalıdır.

Siz yaşadığınız məhəllədə ekoloji vəziyyətin necə olduğunu bilirsinizmi? Bilmirsinizsə, bunu öyrənmək elə də çətin deyil.

Siz məhəlləni gəzib qeydlər götürə bilərsiniz. Qeydlər əsasında «Məhəlləmizdə ətraf mühitin vəziyyəti» adlı mətn tərtib edə bilərsiniz. Bundan başqa, siz öz məhəllənizin planını da tərtib edə bilərsiniz. Planda havanı, suyu, torpağı çirkləndirən mənbələri göstərə bilərsiniz.



Məhəllin planı necə hazırlanır? Bu da çox asandır. Hər hansı yüksəklikdən baxanda ətrafda olan hər şey görünür. Qələm-kağız götürüb yüksək bir yerdə dayanmaq və ərazini təsvir etmək olar. Kağızın üzərində küçələri iki yanaşı xətt, çayı mavi lent formasında göstərə bilərik. Bu təsvirdə parkın, küçələrin, çay üzərindəki körpünün, məktəbin, mağazanın, bir sözlə, ərazidə olan hər bir tikilinin yeri aydın görünür. Belə təsvirə **məhəllin planı** deyilir.

Ətraf mühiti fabrik və zavodlar, nəqliyyat vasitələri, yaşayış evləri çirkləndirir. Şadlıq sarayları, kafe və restoranlarda istifadə olunan yanacağın tüstüsü də ətraf mühitə ziyan vurur.

Sizin məhəllədə yuxarıda sadaladıqlarımızdan hansıları var? Təbii ki, ilk növbədə, yaşayış evləri vardır. Əgər evlər bir-birinə çox yaxın tikilmişdirsə, demək, sizin məhəllədə əhali sıxdır. Əhalinin çox sıx olması ətraf mühitin vəziyyətinə pis təsir göstərir.

Küçələrinizdə zibil qabları yoxdursa, bu, heç yaxşı deyil, yaxud zibil qabları olsa da, zibil vaxtında daşınmırsa, bu, lap pisdir.

Məhəllənizdə nəqliyyatın sıx hərəkət etdiyi küçələr varsa, bu da bir çirklənmə mənbəyidir. Üstəlik, yaxınlıqda fabrik, zavod və digər müəssisələr fəaliyyət göstərirsə, demək, sizin məhəllənin ekoloji vəziyyəti daim diqqət mərkəzində olmalıdır.

Sual və tapşırıqlar

1. Sizcə, əhalinin sıxlığı ətraf mühitə nə üçün mənfi təsir göstərir?

2. Cədvəli dəftərinizdə çəkib işləyin. Cavabınızı sütunlarda «+» işarəsi qoymaqla qeyd edin.

Ətraf mühiti çirkləndirən mənbələr	Təsir istiqamətləri		
	hava	su	torpaq
yaşayış evləri			
fabriklər, zavodlar, sexlər			
nəqliyyat vasitələri			
restoranlar və şadlıq sarayları			

3. Aşağıda göstərilənlərin ekoloji problem yaratmaması üçün hansı tədbirləri görərdiniz? Fikirlərinizi yazın.

a) yaşayış evləri
b) istehsalat müəssisələri
c) nəqliyyat

4. Məhəllənizin ekoloji vəziyyətini əks etdirən məlumat hazırlayıb təqdim edin.

25. YURDUMUZUN İŞIQLARI

Gecə vaxtı birdən işıqlar sönərsə, nə baş verəcək? Təbii ki, hər tərəfə qaranlıq çökəcək. Bu, ona görə belə olur ki, mənzili işıqlandıran lampalar elektriklə işləyir. Ona görə də elektrik enerjisi kəsilən kimi işıqlar sönür.

Avadanlıqlarımızın çoxu elektriklə işləyir. Mobil telefonlar, planşet və noutbukları da vaxtaşırı elektrik mənbəyinə qoşmasaq, onlar işləməz.

Bəs elektrik enerjisi necə əldə olunur?

Elektrik stansiyaları. Elektrik enerjisi ən təmiz və istifadəsi rahat olan enerji növüdür. Ölkəmizdə elektrik enerjisini istehsal edən stansiyalar vardır. Bunlar su elektrik stansiyaları (SES) və istilik elektrik stansiyalarıdır (İES).

Su elektrik stansiyalarında suyun enerjisi elektrik enerjisinə çevrilir. Mingəçevirdə, Şəmkirdə, Şabranda və başqa şəhərlərdə belə stansiyalar fəaliyyət göstərir. Bu stansiyalar gur sulu çayların üzərində tikilir. Azərbaycanın ən böyük çayı olan Kürün üzərində Mingəçevir, Şəmkir, Varvara su elektrik stansiyaları qurulmuşdur. Şabranda Samur çayından başlanan Samur–Abşeron kanalının üzərində isə Taxtakörpü su elektrik stansiyası inşa edilmişdir.

SES-də elektrik enerjisi necə əldə edilir? Bəs çaylardan elektrik enerjisini necə alırlar? Bunun üçün əvvəlcə su anbarları yaradırlar. Çayın qarşısında bənd tikilir. Çayın suyu anbara toplanır. Su bənddən

xüsusi qurğulara daxil olur. Bu qurğulara generator* deyilir. Güclü axınla gələn suyun hərəkəti generatorlarda elektrik enerjisinə çevrilir.

Su elektrik stansiyalarını yalnız iri çayların deyil, kiçik dağ çaylarının, suvarma kanallarının üzərində də tikmək olar. Belə stansiyalara kiçik su elektrik stansiyaları (KSES) deyilir. Bu cür stansiyalarda əldə edilən enerji böyük SES-lərə nisbətən az olur. Respublikamızda çoxlu sayda KSES fəaliyyət göstərir.

Azərbaycanda istifadə olunan elektrik enerjisinin yalnız bir hissəsi su elektrik stansiyalarında istehsal edilir.



* *Generator* – elektrik enerjisi istehsal edən cihaz, qurğu



Şəkildəki oğlanın apardığı təcrübəni şərh edin. Oğlan çarxı arxın hansı hissəsində quraşdırmışdır? Arxda suyun hərəkət sürəti çarxın fırlanmasına necə təsir edir?

Sual və tapşırıqlar

1. Azərbaycan Respublikasında elektrik enerjisi, əsasən, əldə edilir:

a) su və istilik elektrik stansiyalarında
b) külək qurğuları və Günəş batareyalarından
c) dəniz dalğalarından və yerin alt qatından

2. SES-lərdə elektrik enerjisi necə əldə edilir? Fikirlərinizi şərh edin.

3. Cədvəli dəftərinizdə çəkib işləyin və təqdim edin.

SES-lər	Hansı çay üzərində tikilmişdir?
Mingəçevir	
Şəmkir	
Varvara	
Yenikənd	Kür
Taxtakörpü	

26. ENERJİ MƏNBƏLƏRİ

Gündən-günə elektrik enerjisinə ehtiyac artır. Bu ehtiyacı ödəmək üçün çoxlu sayda elektrik stansiyaları istifadəyə verilir. Təəssüf ki, onların təbiətə zərəri də vardır.

Bu zərər özünü nədə göstərir və biz bunun qarşısını necə ala bilərik?

DƏRS 1

Ənənəvi enerji mənbələri. Bakıda, Naxçıvanda, Şirvanda və digər şəhərlərdə xeyli sayda istilik elektrik stansiyası (İES) fəaliyyət göstərir. İES-lərdə yanar faydalı qazıntılardan – neft, daş kömür, qaz, torf və s. kimi yanacaqdan istifadə olunur. Böyük çənlərdə su qaynadılır, çıxan isti buxar generatorları işə salır və enerji alınır. İnsanlar bu yanacaq mənbələrindən qədim zamanlardan istifadə edirlər. Ona görə də onları ənənəvi enerji mənbələri adlandırırlar.



Ənənəvi enerji mənbələrinin üstünlüyü ondan ibarətdir ki, bu yanacaqlardan istifadə edən istilik elektrik stansiyalarını tikmək ucuz və asandır. İlin bütün fəsillərində, hava şəraitindən asılı olmayaraq, belə stansiyalarda fasiləsiz elektrik enerjisi əldə edilir.

İES-lərin fəaliyyəti zamanı ətraf mühitə xeyli zərərli qazlar və kül hissəcikləri atılır. Zəhərli qazlar havanı çirkləndirir, sonra yağışa qarışaraq yerə qayıdır və torpağı çirkləndirir.

İES-lər su hövzələrini də çirkləndirir. Stansiya işləyərkən isti və çirkab suların bir

hissəsi ətrafdakı su hövzələrinə axıdılır, müəyyən hissəsi isə torpağa hopur. Beləliklə, torpaq öz münbitliyini itirir.

İES-lər canlılar aləminə də təsir edir. Belə ki, İES-lərdə yanacaq yandırılarkən zərərli qaz yaranır. Bu isə insanların gözündə, tənəffüs orqanlarında xəstəliklərə səbəb olur. Bu qaz bitkilərə də mənfi təsir edir, onların yarpaqlarını zədələyir. İynəyarpaqlı ağaclar daha çox ziyan çəkir, çünki onlar həmişəyaşıl ağaclardır. Yarpaqları zədələnmiş həmişəyaşıl ağaclar qısaömürlü olur və tez quruyur. İES-lərin bitkilərə mənfi təsirlərindən biri də ağacların boyatma sürətinin azalmasıdır.

Bütün bunları nəzərə alaraq, elektrik enerjisinin ziyansız mənbələrini axtarmaq vacibdir. İES-lərin sayını mümkün qədər azaltmaq və gələcəkdə onlardan tamamilə imtina etmək lazımdır.

Sual və tapşırıqlar

1. Azərbaycanda ənənəvi enerji mənbələrinin ən böyük ehtiyatları hansılardır?

2. Sizcə, İES-lərdən istifadə edilməsinin əsas səbəbi hansıdır? Bu fikirlərə münasibət bildirin.

1) İES-lərdə əldə edilən enerji çox ucuz başa gəlir.
2) İES-ləri hazırda başqa mənbə ilə əvəz etmək mümkün deyil.
3) İES-lərdə daha çox enerji əldə etmək mümkündür.
4) İES-lər fasiləsiz enerji istehsal edir.

3. «İES-lərin fəaliyyətinin bitki və insan orqanizminə təsiri» adlı cədvəli dəftərinizdə çəkib işləyin.

İES-lərin fəaliyyəti	Zərərli təsirləri
ətraf mühitə	
bitkilərin orqanizminə	
insan orqanizminə	

DƏRS 2





Alternativ enerji mənbələri. Xüsusi qurğuların köməyilə küləkdən, dəniz dalğasından, günəş işığından, hətta tullantılardan da elektrik enerjisi almaq mümkündür. Bu cür enerji mənbələrinə alternativ enerji mənbələri deyilir. Bu mənbələr heç vaxt tükənmir. Alternativ mənbələrdən alınan enerjinin istifadəsi təbiəti zərərli tullantılarla çirkləndirmir, lakin belə stansiyaların tikintisi baha başa gəlir.

Azərbaycan Respublikası alternativ enerji mənbələri ilə zəngindir. Ölkəmizin ərazisində dağ çayları, Günəş və külək enerjisindən istifadə etmək üçün geniş imkanlar var.

Bol Günəş işığı düşən ərazilərdə Günəş enerjisini elektrik enerjisinə çevirən xüsusi batareyalar quraşdırılır. Bunlar Günəş elektrik stansiyalarıdır (GES). Hazırda Bakıda, Naxçıvanda, Qobustanda və Samux rayonunda Günəş elektrik stansiyaları işləyir.

Elektrik enerjisi əldə etmək üçün külək çox olan ərazilərdə küləyin gücü ilə hərəkətə gələn iriçarxlı qurğular yerləşdirilir. Bunlar külək elektrik stansiyalarıdır (KES). Abşeron yarımadasında, Qobustanda belə stansiyalar yaradılmışdır. Xızı rayonunda gücü daha çox olan külək elektrik stansiyası

Azərbaycan Respublikasında elektrik enerjisi istehsal edən böyük stansiyalar

Şərti işarələr:

- SES – su elektrik stansiyası
- İES – istilik elektrik stansiyası
- GES – Günəş elektrik stansiyası
- KES – külək elektrik stansiyası

fəaliyyət göstərir. Gələcəkdə Xəzər dənizində nəhəng KES tikilməsi nəzərdə tutulmuşdur.

Müasir dövrdə dünya ölkələri elektrik enerjisinə olan ehtiyacı tükənməyən və təbiəti tullantılarla korlamayan mənbələr hesabına ödəməyə çalışırlar. İnsanlar zərərli yanacaq mənbələrindən istifadəni dayandırmağı tələb edir, canlı aləmin qorunmasını istəyirlər. Bunun üçün onların əksəriyyəti «Ümumdünya Yaşıllar Hərəkatı»na qoşulurlar. Bu təşkilat Azərbaycanda da fəaliyyət göstərir. Sizin qrup da bu hərəkata qoşulub təbiətin qorunmasına öz töhfəsini verə bilər.

Sual və tapşırıqlar

1. Azərbaycanda olan alternativ enerji mənbələrinin adlarını yazın.

2. «Bu enerji ehtiyatları tükənmir». Söhbət nədən gedir?

a) ənənəvi enerji mənbələrindən
b) alternativ enerji mənbələrindən

3. Venn diaqramında ənənəvi və alternativ enerji mənbələrini müqayisə edin.



4. Ənənəvi və alternativ enerji mənbələrinin xüsusiyyətlərinə aid cədvəli dəftərinizdə çəkib işləyin.

Enerji mənbələri	Müsbət cəhətlər	Mənfi cəhətlər
ənənəvi		
alternativ		

5. Xəritədə yaşadığınız yerə ən yaxın olan enerji istehsalı müəssisəsini tapın.

6. Alternativ enerji mənbələrindən istifadəyə aid layihə hazırlayın.

BURAXILIŞ MƏLUMATI

HƏYAT BİLGİSİ 4
Ümumtəhsil məktəblərinin 4-cü sinfi üçün
Həyat bilgisi fənni üzrə
DƏRSLİK

Tərtibçi heyət:

Müəllif ***Gülər Ələkbər qızı Mehdiyeva***

Redaktor ***İradə Musalı***
Bədii və texniki redaktor ***Abdulla Ələkbərov***
Dizaynerlər ***Səbinə Məmmədova***
Təhmasib Mehdiyev
Rəssam ***Rəhilə Məmmədova***
Korrektor ***Mətanət Kərimova***

Dərslik «Loqos» Psixoloji və Nitq İnkişaf Mərkəzinin rəhbəri,
psixologiya üzrə fəlsəfə doktoru Təranə Məmmədova tərəfindən
müvafiq parametrlər üzrə dəyərləndirilmişdir.

© Azərbaycan Respublikası Təhsil Nazirliyi (qrif nömrəsi: 2019-018)

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və
yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 11,5. Fiziki çap vərəqi 13,0.
Formatı 57x82 1/8. Səhifə sayı 104. Ofset çapı.
Tirajı 158416. Pulsuz. Bakı–2019.

«Aspoliqraf LTD» MMC
Bakı, AZ 1052, F.Xoyski küç., 149

PULSUZ

Əziz məktəbli!

Bu dərslik sənə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sənə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, sən də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsan ki, növbəti dərs ilində digər məktəbli yoldaşın ondan sənin kimi rahat istifadə edə bilsin.

Sənə təhsildə uğurlar arzulayırıq!